Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3-5 AVQUST 2019-cu il

№ 136 (4034)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

səh. 11

# AZƏRBAYCAN ƏHALİSİNİN 98 FAİZİNİN İLİN SONUNADƏK KONKRET GÖZLƏNTİSİ...



Bakı İrəvanın məkrli planlarını pozur - sərhədlərdə...

səh. 9

Vahid Əhmədovun yersiz fikirləri bütün media rəhbərlərini ona qarşı çevirdi...

səh. 4

İvanişvilinin "avro-5 siyasətinin" bir ucu Gürcüstanın özünü, digər ucu Azərbaycanı vuracaq...

səh. 8



Köçəryan Paşinyana qarşı partiyaların "sentyabr zərbə bloku"nu yaradır

səh. 10



Rusiya ilə ABŞ arasında 32 illik raket sazişi rəsmən ləğv edildi

səh. 6



Kənd təsərrüfatında uçot məsələsi Xaçmazda geniş müzakirəyə çıxarıldı

səh. 14




səh. 3

## Putin-Ruhani-Əliyev sammiti ərəfəsində Soçi aeroportu terror şübhəlisi ermənilərdən təmizlənir...



Samir Şərifov dövlət müşavirəsində «şok bəyanat» verdi - «Cənub Qaz Dəhlizi»nin «üstündə əsənlərə» mesaj...

səh. 7

Avtomobil ixracı məsələsində ABŞ-ın Ermənistana ilk iqtisadi sanksiyasının əlamətləri...

səh. 6



Plastik cərrahiyyə masasında Sona həkimin ölümünə səbəb olmuş cərrah Sirus Qoçqani barədə şok iddia - diş texniki?

səh. 13

səh. 3

Ermənistanın Azərbaycanın DSX hissələrini atəşə tutmasının beynəlxalq hüquqi anlamı - hədəfdə dövlət sərhədlərimizdir...



səh. 5

ABŞ separatçı "DQR"ə maliyyə yardımını ləğv edir - Amerika Qarabağ məsələsində sərtləşəcək



səh. 12

Elman Rüstəmovdan dövlət müşavirəsində dəqiq, lakin natamam mülahizə - biznes niyə artmır...



səh. 7

Azərbaycanın dövlət borcunun səmərəli idarəçiliyində fantastik nəticə - bir ildə 4 faiz...



səh. 11

Özəl banklar Azərbaycanın aqrar sektorunun böyük inkişafında heç bir rol oynaya bilmir...





# Prezident İlham Əliyev Azərbaycanda yeni təyin olunmuş səfirlərin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasim Mohammad Salim Al Salhinin və** Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sivienqpxet Pxetvorasakın da etimadnaməsini qəbul edib.

## Ermənistanın təxribatının qarşısını alarkən yaralanan sərhədçi əsgərimiz əməliyyat olunub

**İyulin 31-də Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatının qarşısının alınması zamanı yaralanan hərbi qulluqçu üzərində avqust ayının 1-də aparılan cərrahiyyə əməliyyatı uğurla başa çatıb.**



Bu barədə "Trend"ə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.

Qeyd edilir ki, hazırda onun vəziyyəti qənaətbəxşdir. Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı general-leytenant Əsgər Xəlilov hərbi qulluqçuya baş çəkib, cərrahiyyə əməliyyatından sonrakı vəziyyəti ilə yaxından tanış olub.

General-leytenant Ə.Xəlilov hərbi hospitalda hərbi qulluqçunun valideynləri ilə görüşüb, övladlarını dövlətə sədaqət, vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə etdiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəhbərliyi adından təşəkkürünü bildirib, oğullarının tezliklə sağalması üçün bütün lazımi tədbirlərin görüləcəyinə onları əmin edib.

## Xətaidə lombarda quldur basqını edən canilər tutuldu...

**Xətai rayonu ərazisində yerləşən lombardlardan birində işləyən qadına qarşı quldurluq edilib. Hadisə zamanı zərərçəkənin baş nahiyəsinə xəsarət yetirən naməlum şəxslər quldurluq yolu ilə pul və qızıl-zinət əşyaları götürərək hadisə yerindən qaçıblar.**

Faktla bağlı məlumat daxil olan kimi Daxili İşlər Nazirliyi, Bakı şəhər Baş Polis İdarəsi və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, zərərçəkənin izahatı alınıb. Həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinənlərin şəxsiyyəti qısa zamanda müəyyənləşdirilib. Əməliyyat zamanı həmin şəxslər - Ağcabədi rayon sakini Nəbi Əhmədov və Füzuli rayon sakini, əvvəllər məhkum olunmuş Ceyhun Əliyev tutularaq istintaqa təqdim edilib.

Saxlanan şəxslər ifadələrində törətdikləri cinayəti etiraf ediblər. Onlar lombarda daxil olan zaman özlərini su idarəsinin əməkdaşları kimi təqdim etdiklərini bildiriblər. Qeyd edək ki, hadisə zamanı N.Əhmədov və C.Əliyev lombardın müşahidə kamerasının yaddaş blokunu da çıxararaq özü ilə aparıb.

Faktla bağlı Xətai Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

# Tramp minlərlə İŞİD terrorçusunu Avropaya göndərməklə təhdid etdi - "Geri almasalar..."

**ABŞ Prezidenti Donald Tramp Avropa ölkələrini, ABŞ həbsxanalarındakı avropalı İŞİD-çiləri təhvil almasalar onları buraxmaqla təhdid edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, yüzlərlə avropalı İŞİD-çi, minlərlə uşaq və qadın hazırda Suriyanın şimalında ABŞ dəstəkli, əsasən kürdlərdən ibarət olan Suriya Demokratik Qüvvələri (SDQ) tərəfindən saxlanır. Onların arasında Suriya və iraqlıları çıxmaqla 13 min əcnəbi terrorçu var. Aralarında olan qadın və uşaqların



sayının isə 11 min olduğu deyilir.

Ağ Ev administrasiyası Avropa Birliyi ölkələrinə İŞİD-ə qoşulan avropalıları geri almaları üçün təzyiq göstərir. Ancaq sözügedən ölkələrn çoxu terrorçuların döndükləri zaman təhlükəsizlik risqi yaradacağından ehtiyat edərək bu istiqamətdə addım atmaq istəmirlər.

Tramp isə Avropa ölkələrini, İŞİD-ə qoşulan avropalıları geri almasalar, Suriyada saxlanan minlərlə terrorçunu Avropaya göndərməklə təhdid edib.

"Əlimizdə Avropanın geri təhvil almasını istədiyimiz minlərlə İŞİD terrorçusu var. Onları geri alacaqlarmı, bilmirik. Almasalar da böyük ehtimalla onları Avropaya göndərəcəyik" - Tramp bildirib.



## Turistlərə xəbərdarlıq: şirkət seçimində diqqətli olun

Azərbaycan Turizm Assosiasiyası (AZTA) turistləri şirkət seçimində daha diqqətli olmağa çağırır.

"Trend"in məlumatına görə, AZTA-nın rəhbəri Nahid Bağırovun sözlərinə əsasən, son zamanlar şirkətlərin keyfiyyətsiz və məsuliyyətsiz fəaliyyətləri ilə bağlı assosiasiyaya daxil olan şikayətlərin sayı artır:

"Hazırda sektorda idarəetmə mexanizmlərinin olmaması turistlər üçün ciddi problemlər yaradır, eləcə də sektorun imicinə ziyan vurur. Bütün baş verənləri nəzərə alaraq, turistlərə şirkət seçərkən daha diqqətli olmağa, yalnız tanınmış və kifayət qədər müştəri bazası olan şirkətlərlə əməkdaşlıq etməyi tövsiyə edirik".



## Kondaliza Rays Ukraynanın NATO-ya qəbul olunmasını mümkünsüz sayır

**ABŞ-ın keçmiş dövlət katibi Kondaliza Rays hesab edir ki, Ukrayna yaxın gələcəkdə NATO-nun bir hissəsinə çevrilə bilməyəcək.**

Baki-xeber.com Sputnik Azərbaycan-a istinadən xəbər verir ki, Rays bunu Ukraynanın "Novoye Vremya" nəşrinə müsahibəsində deyib.

"Düşünürəm ki, hazırda bu (Ukraynanın NATO-ya qəbul olunması - red.) mümkün deyil.

Ona görə ki, NATO konsensus əsasında fəaliyyət göstərən bir təşkilatdır və fikrimcə, siz (ukraynalılar - red.) konsensus əldə etməyəcəksiniz.

Məncə, indi hətta NATO-ya üzvlüyə dair fəaliyyət planı ilə bağlı konsensus əldə etmək çətin olacaq", - keçmiş dövlət katibi deyib.

Lakin Rays bildirib ki, Ukrayna Alyansla rəsmi razılaşma olmadan belə sıx əməkdaşlıq edə bilər. Onun fikrincə, buna Ukrayna-NATO komissiyası kömək göstərə bilər.




## AQTA Şabrandakı kütləvi qida zəhərlənməsi ilə bağlı araşdırmalara başladı

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) mütəxəssislərindən ibarət araşdırma qrupu Şabranda baş verən kütləvi qida zəhərlənməsi ilə bağlı hadisə yerinə ezam olunub. Bu barədə "Trend"ə AQTA-dan məlumat verilib.

Agentlik əməkdaşları tərəfindən araşdırmalara başlanıb. Araşdırmaların nəticələri ilə bağlı ictimaiyyətə məlumat veriləcək.

Qeyd edək ki, son iki gündə Şabran Rayon Mərkəzi xəstəxanasına 20 nəfərdən çox rayon sakini qida zəhərlənməsi diaqnozu ilə müraciət edib. İlkin ehtimala görə, həmin şəxslər doğum günü mərasimində yedikləri tortdan zəhərləniblər.

**Soçi Beynəlxalq Hava Limanından ermənilərin kütləvi şəkildə işdən çıxarılmasına başlanıb. Belə ki, hava limanından qovulan ermənilər məsələ ilə bağlı bəyanat yayıblar. Onlar hava limanından məhz milli kimliyinə görə 100 nəfərin qovulduğunu bildiriblər.**




# Putin-Ruhani-Əliyev sammiti ərəfəsində Soçi aeroportu terror şübhəlisi ermənilərdən təmizlənir...

## ***Məhəmməd Əsədullazadə:*** *"Dövlət başçılarının Soçi görüşü ərəfəsində belə bir təhlükəsizlik tədbirinin görülməsi təsadüfi deyil"*

Ermənilər bu prosesin 2018-ci ilin əvvəlindən başladığını və ilk təmizləmələrin hava limanının daşınmaları təşkili xidməti və aviasiya təhlükəsizliyi xidmətində aparıldığını vurğulayıblar. Onlar hətta iclaslar zamanı erməni əsilli şəxslərin könüllü şəkildə 1 sentyabra qədər istefa verməsi gərəkliyi ilə bağlı xəbərdarlıq aldıqlarını da iddia ediblər.

O da məlumdur ki, Soçi Rusiya üçün olduqca əhəmiyyəti şəhərə çevrilib. Çünki bu şəhər son illər beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edir. Belə olan halda isə xüsusən strateji əhəmiyyətli hava limanında erməni faktorunun böyüməsi Moskvada anlaşılan narahatlığa səbəb olur. Rusiya milliyyətcə erməni olan şəxslərin törətdiyi terror aktları ilə dəfələrlə qarşılaşıb. Çünki Rusiya, Azərbaycan və İran prezidentləri Vladimir Putin, İlham Əliyev və Həsən Ruhaninin bu ilin avqustunda Soçidə görüşü keçiriləcək. Keçirilməsi planlaşdırılan görüş ərəfəsində erməni millətindən olan insanların kütləvi şəkildə strateji ərazidən kənarlaşdırılması onu göstərir ki, Rusiya ermənilərə etibar etmir. Ermənilərin terrorçu xislətə malik olması bu baxımdan potensial təhdid mənbəyidir.

Maraqlıdır, bəs ekspertlər baş verənləri necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Rusiya artıq ermənilərə etibar etmir: "Ermənistanda ötən il etirazlardan sonra Rusiyanın ermənilərə etibarı yoxdur. Rusiya yaxşı bilir ki, ermənilər xəyanətkardır və istəilən vaxt bu ölkəyə xəyanət edəcəklər. Moskvanın ermənilərdən istifadə etməkdə məqsədi regionda öz siyasətini qurmaqdır. Ermənilər Rusiyada SSRİ vaxtından terror fəaliyyəti ilə məşğul olublar. Onların yenidən terror və təxribata əl atması mümkündür. Soçi kimi strateji önəm daşıyan bir şəhərdə hava limanı və digər sahələrdə ermənilərn mövcudluğu Rusiyanın təhlükəsizliyi üçün təhdiddir. İndi Rusiya bunu başa düşür. Hesab edirəm ki, görünür, bununla bağlı Rusiya xüsusi xidmət orqanlarında ciddi məlumatlar var. Ermənilərin ABŞ-da böyük lobbisi var. Bundan əlavə, terror qruplaşmaları ilə ermənilər daim əlaqədədir. Hesab edirəm ki, Moskvanın bu addımı təhlükəsizliklə bağlıdır. Hər hansı bir terror mərkəzindən gələn təlimatla ermənilər Rusiyada terror aktı həyata keçirə bilər. Soçi də bu risqə aiddir. Dövlət başçılarının Soçi görüşü ərəfəsində belə bir təhlükəsizlik tədbirinin görülməsi təsadüfi deyil. Görünür, Moskvanın əlində ermənilərlə bağlı əsaslı dəlillər var. Yoxsa belə bir addıma birdən-birə getməzdilər. Hesab edirəm ki, Rusiyada artıq ermənilərə etibar edilməyəcək. Onların mühüm və strateji önəm kəsb edən dövlət müəssisələrində yüksək vəzifədə çalışmasının artıq qarşısı alınacaq.

*"Görünür, bununla bağlı Rusiya xüsusi xidmət orqanlarında ciddi məlumatlar var"*

Məhz Soçi amili Rusiyaya bir mesajdır və bundan sonra Moskva ermənilərlə bağlı siyasətində korrektələr edə bilər. Rusiyanın Ermənistanla və ermənilərlə bağlı siyasəti artıq köhnəlib. Onlarla müttəfiqlik əlaqələri Türkiyə və Azərbaycana qarşı yönəlib. İndi isə Rusiyanın geosiyasi mövqeyinin güclənməsi, Türkiyə ilə əməkdaşlığın inkişafı, Azərbaycandan özünə qarşı təhlükəli siyasətin olmaması Moskvanın Ermənistanla bağlı siyasətində dəyişiklik etməlidir. Nə qədər buna getsələr, Rusiya udacaq. Əks halda, bu, Rusiyanın ziyanına olacaq".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Azərbaycanın Ermənistanla olan sərhədinin bəzi yerlərində ön cəbhədəki keşiyi Dövlət Sərhəd Xidmətinin əsgərləri çəkirlər. Biz fikir veririk ki, bu prosesə start veriləndən sonra sərhədçilərimiz tez-tez Ermənistan tərəfindən atəşə tutulur. Bir neçə gün əvvəl DSX-ya məxsus posta yaxın yerdə üzərində "Təcili tibbi yardım" yazılan və aypara təsviri olan, həkimlərin olduğu avtomobil snayperlə atəşə məruz qaldı.**



# Ermənistanın Azərbaycanın DSX hissələrini atəşə tutmasının beynəlxalq hüquqi anlamı - hədəfdə dövlət sərhədlərimizdir...

## ***Daşdəmir Əliyev:*** *"Bilsinlər ki, cəbhənin istənilən istiqamətində Azərbaycanın bütün qoşun növləri ayıq-sayıqdır və düşməni yerində oturtmağa qadirdilər"*

İyulun 31-də isə Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatının qarşısının alınması zamanı yaralanan hərbi qulluqçu üzərində avqust ayının 1-də aparılan cərrahiyyə əməliyyatı uğurla başa çatıb. Hazırda vəziyyəti qənaətbəxşdir. Bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.

Dövlət Sərhəd Xidməti rəisinin müavini - general-leytenant Əsgər Xəlilov hərbi qulluqçuya baş çəkib, cərrahiyyə əməliyyatından sonrakı vəziyyəti ilə yaxından tanış olub. General-leytenant Ə.Xəlilov hərbi hospitalda hərbi qulluqçunun valideynləri ilə görüşüb, övladlarını dövlətə sədaqət, vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə etdiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəhbərliyi adından təşəkkürünü bildirib, oğullarının tezliklə sağalması üçün bütün lazımi tədbirlərin görüləcəyinə onları əmin edib.

Diqqətçəkən xüsusi məqam ondan ibarətdir ki, artıq son vaxtlar ermənilər aktiv münaqişə ocağı sayılan Dağlıq Qarabağ və onun ətrafında deyil, məhz dövlət sərhədlərimizdə fəallaşmağa başlayıblar. Ermənilərin məhz dövlət sərhədlərimizi hədəfə alması nə ilə bağlıdır?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, bununla bağlı Ermənistanın bir neçə istiqamətdə məkrli planları ola bilər: "Onların istənilən yerdən bizə güllə atması təxribat sayıla bilər. Çünki işğalı onlar ediblər. Ancaq son dövrlər onların atəşkəsin pozulması vektorunu dəyişməsi maraqlı görünür. Bilirsiniz ki, Azərbaycan Sərhəd Qoşunları düşmənlə aramızdakı sərhədin mühafizəsinə ilkin olaraq Qazax tərəfdən başlayıb. O da məlumdur ki, Azərbaycanın Gürcüstanla sərhəd ərazisi də məhz həmin zonaya təsadüf edir. Ötən aylar ərzində biz Keşikçidağ istiqamətində Gürcüstan tərəfdən müəyyən təxribatçı addımlarla rastlaşmalı olduq. Bəlli oldu ki, o təxribatların arxasında da erməni barmağı var. İndi aydın olur ki, Ermənistan tərəfdən dövlət sərhədlərimizin məhz Qazax rayonu istiqamətində atəşə məruz qalması təsadüfi deyil. Bununla Ermənistan üç dövlətə yaxın ərazidə suyu bulandırıb, yeni təxribat ocağı yaratmaq istəyir. Sonra da Azərbaycanın verəcəyi sərt cavabı Ermənistana müdaxilə kimi dəyərləndirib prosesə KTMT-ni qoşmaq istəyir.

Çünki Ermənistanın üzv olduğu həmin təşkilat onun sərhədlərinin ümumi mühafizəsini üzərinə götürür. Ancaq dəfələrlə Ermənistanın prosesə KTMT-ni qoşmaq cəhdləri alınmayıb. Əksinə, Ermənistan KTMT-dən qovulmaq vəziyyətinə gətirilib. Onlar bizi heç bir təxribata çəkə bilməyəcəklər. Bilsinlər ki, cəbhənin istənilən istiqamətində Azərbaycanın bütün qoşun növləri ayıq-sayıqdır və düşməni yerində oturtmağa qadirdilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Vahid Əhmədovun yersiz fikirləri bütün media rəhbərlərini ona qarşı çevirdi...

**Millət vəkili Vahid Əhmədovun Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) fəaliyyətinə dair səsləndirdiyi fikirlər birmənalı qarşılanmayıb. Ötən sayımızda KİVDF-dən maliyyələşən bəzi qəzet baş redaktorlarının bu məsələyə kəskin etirazını dərc etdik. Onlar, birmənalı şəkildə, Vahid Əhmədovun özünə aid olmayan bir sahə ilə bağlı, heç bir fakta əsaslanmayan fikirlərini absurd adlandırdılar.**







Qeyd edək ki, Vahid Əhmədov öz çıxışında bildirib ki, KİVDF bir təsisat kimi özünü doğrultmayıb, guya ölkənin bəzi aparıcı jurnalistləri qurumun fəaliyyətindən narazıdır, qurumda monopoliya mövcuddur və oradan pul alan qəzetlərin böyük əksəriyyəti məmurların kurasiyası altında fəaliyyət göstərir. Millət vəkilinin bu fikirlərinə KİVDF-dən maliyyə alan digər baş redaktorların da mövqeyini öyrəndik.

### Asəf Rzayev: "Bu kimi əsassız fikirlər KİVDF-nin fəaliyyətinə kölgə salmağa hesablanıb"

"Unikal" qəzetinin baş redaktoru Asəf Rzayev "Bakı-Xəbər"ə bildirdi ki, Vahid Əhmədovun KİVDF haqda dediyi fikirlərlə qətiyyən razı deyil: "Çünki bu fond, faktiki olaraq, yazılı mətbuatı məhvdən xilas edib. Cənab Prezidentin imzası ilə yaradılan bu fondun fəaliyyətini təqdir etmək lazımdır. Söhbət maliyyələşmənin prinsiplərindən gedirsə, bu olduqca şəffafdır. Biz müstəqil qəzet kimi uzun illərdir həmin prosesdə yaxından iştirak edirik. Bilirsiniz ki, hazırda internet əsridir. Çap mediasının yaşadılması çox çətindir. Mən inanmıram ki, hazırkı şəraitdə maliyyə yardımı olmadan hansısa qəzet periodik çıxa bilsin. Bu baxımdan da KİVDF-ni uğurlu layihə saymaq olar. Hesab edirəm ki, proses davam etdirilməlidir. Qəzetlərin fəaliyyəti üçün bu sistemin mövcud olmasına ehtiyac var. KİVDF-dən maliyyələşən qəzetlərin hansısa məmurların monopoliyası altında olmasına gəldikdə isə, bu tamamilə absurd fikirdir. Əgər belə olsaydı, həmin qəzetlər maliyyə almaq üçün KİVDF-yə niyə müraciət edirdilər? Elə həmin məmurlardan pul alıb fəaliyyət göstərərdilər. Bu kimi əsassız fikirlər KİVDF-nin fəaliyyətinə kölgə salmağa hesablanıb".

### Rasim Bayramov: "Dövlətdən tam dəstək alan qəzet niyə hansısa məmura sığınmalıdır?"

"Mövqe" qəzetinin baş redaktoru Rasim Bayramov da qəzetimizə açıqlamasında Vahid Əhmədovun fikirlərinin heç bir məntiqə əsaslanmadığını qeyd etdi: "Vahid Əhmədovun açıqlaması göstərir ki, onun medianın real durumu və qəzet sənayesindən, ümumiyyətlə, xəbəri yoxdur. Əgər təsəvvürü olsaydı, bu tip, reallıqdan uzaq olan açıqlama ilə çıxış etməzdi. KİVDF medianın inkişafında müstəsna rol oynamış təsisatdır. Bu 10 illik fəaliyyəti yaxşı tədqiq etsələr, bunun şahidi olarlar. Ümumi sözlərlə fikir bildirib, hansısa qurumun adını qaralamaq doğru deyil. Yaxşı olardı ki, Vahid Əhmədov KİVDF-nin fəaliyyəti ilə yaxından tanış olsun. Əminəm ki, təsəvvürü tamamilə dəyişər. Rəhbərlik etdiyim qəzet tam müstəqil şəkildə fəaliyyət göstərir. KİVDF-dən maliyyə almağımız tam şəffaf şəkildə həyata keçir. Bağlanan qarşılıqlı müqavilə əsasında biz təqdim olunan layihələri icra edirik. Həmin layihələrin mövzularına fikir versəniz görərsiniz ki, dövlətimiz üçün prioritet olan sahələr işıqlandırılır. KİVDF tərəfindən ayrılan maliyyə ilə biz qəzeti yaxşı inkişaf etdirə bilirik. Onun tirajını artırmağa nail oluruq. Yayımını genişləndirə bilirik. Dövlətdən tam dəstək alan qəzet niyə hansısa məmura sığınmalıdır? Buna nə ehtiyac var? Bu məsələdə Vahid Əhmədovun mövqeyi tamamilə gülünc görünür. Əksinə, dövlət tərəfindən ayrılan vəsait qəzetləri kimlərinsə asılılığından tam azad edir. Yaxşı olar ki, bu sahədən daha çox məlumatı olan adamlar danışsın. Yoxsa, belə əsassız fikirləri ifadə etməklə adamlar özlərini gülüş obyektinə çevirmiş olurlar".

### İlqar Hüseynov: "Yaxşı olar ki, həmin adamlar gedib öz problemlərini həll etsinlər, sonra əksəriyyətin adından danışsınlar"

Rus dilində nəşr olunan "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov qəzetimizə bildirdi ki, Vahid Əhmədovun həmin fikirləri nəyə əsaslanaraq söyləməsi çox maraqlıdır: "Bizim qəzet uzun illərdir KİVDF-dən maliyyə alaraq çap olunur. Bilirsiniz ki, rusdilli mətbuatın fəaliyyətinə bizim böyük ehtiyacımız var. Amma etiraf edək ki, dövlətimizin dəstəyi olmadan bunu etmək mümkün deyil. Necə deyərlər, hər şey göz qabağındadır. Mənim üçün çox maraqlıdır, Vahid Əhmədovu öz sahəsinə aid olmayan bir məsələ ilə bağlı belə primitiv açıqlama verməyə nə vadar edib? Mən başa düşmürəm, Vahid Əhmədov hansı jurnalistlərin adından danışaraq deyir ki, onlar KİVDF-dən narazıdırlar? Niyə həmin adamların adını açıqlamır? Bu qəti olaraq mümkün deyil. Narazı adamlar hər yerdə ola bilər. Amma KİVDF-dən narazı olanlar ilk növbədə öz talelərindən narazı olanlardır. Yaxşı olar ki, həmin adamlar gedib öz problemlərini həll etsinlər, sonra əksəriyyətin adından danışsınlar. Hesab edirəm ki, Vahid Əhmədovun söylədikləri yalan və iftiradan başqa nəsə deyil".

### Aqil Camal: "Bu gün fəaliyyətimizi davam etdirməyimizin əsas təminatçısı KİVDF-dir"

"Türküstan" qəzetinin baş redaktoru Aqil Camal qəzetimizə bildirdi ki, hazırda KİVDF tərəfindən maliyyə yardımı alan qəzetlərin sayı 25-dir: "Həmin qəzetlər müxtəlif formatlı, müxtəlif ictimai-siyasi, ideoloji profilli olduqları kimi, o qəzetlərə cəmiyyətin münasibəti də müxtəlifdir. Ona görə mən yalnız öz qəzetimiz "Türküstan" barədə danışa bilərəm. KİVDF 2009-cu ildə yaradılıb. Biz isə Fondun kriteriyalarına (tiraj, abunə, satış) 2013-ü ildə uyğunlaşa bilmişik və o zamandan həftəlik qəzet kimi maliyyə yardımı alan qəzetlər sırasındayıq. Tam müstəqil şəkildə fəaliyyət göstəririk. Bu gün fəaliyyətimizi davam etdirməyimizin əsas təminatçısı KİVDF-dir. Aprel ayından Fondun ayırdığı maliyyə yardımı 2 dəfə artırıldığından, biz həm rəngli, həm də 24 səhifə çıxmaq imkanı əldə etmişik. Oxucuların qəzetimizə (eyni zamanda, saytımız Turkustan.info-ya) münasibəti çoxlarına bəllidir. Elə Mətbuat Günü ərəfəsində parlament jurnalistləri arasında keçirilən sorğuya görə, "Türküstan" qəzeti "22 iyul varisi" seçilib. Bu baxımdan, hesab edirəm ki, deputat Vahid Əhmədovun KİVDF-nin qəzetlərlə bağlı fəaliyyətini ümumi şəkildə qiymətləndirməsi doğru yanaşma deyil. Əgər hansısa qəzetin fəaliyyəti, hansısa jurnalistin narazılığı ilə bağlı fikri, faktı varsa, onu konkretləşdirsin".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ separatçı "DQR"ə maliyyə yardımını ləğv edir - Amerika Qarabağ məsələsində sərtləşəcək

**ABŞ işğal altında olan Qarabağ ərazisində minaların təmizlənməsi üzrə maliyyə dəstəyini dayandırır. Bu barədə Amerikanın Erməni Milli Komitəsinin "Twitter" səhifəsində məlumat yerləşdirilib. Bildirilib ki, bir müddət əvvəl ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi maliyyələşmə barədə düzəlişə baxmayaraq, administrasiya maliyyə dəstəyini dayandırmaqda israrlıdır.**

Qeyd edək ki, ABŞ administrasiyası müxtəliq layihələr adı altında Qarabağ separatçılarına maliyyə yardımları ayırıb. Bu amil ABŞ-ın mövqeyinin konkretləşməsi anlamına gəlir. Bu mövqenin Dağlıq Qarabağ probleminin həllinə nə kimi təsiri olacaq?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ Ermənistandan sonra dünyada Qarabağı tanımasa da, separatçılara yardm ayıran tək dövlətdir: "Qarabağ separatçılarının ABŞ-ın hakimiyyətə gətirdiyi Paşinyanla razılığa gəlməməsi, onların Rusiyaya "sədaqəti", ABŞ-ın İran məsələsində Azərbaycanla yaxınlaşma cəhdləri Qarabağ separatçılarına yardımın kəsilməsinə səbəb olub. Bu yardımların davam etməsi gələcəkdə bir sıra amillərdən asılı ola bilər, lakin böyük ehtimalla bu yardımlar azalmağa doğru gedəcək. ABŞ həm USAID proqramı çərçivəsində Dağlıq Qarabağa, həm də "Foreign Assistane" proqramı çərçivəsində Ermənistana göstərdiyi maliyyə yardımını azaltmaq qərarına gəlib".

Politoloqun sözlərinə görə, Ermənistanda bu məsələ ilə bağlı yaranmış fikir ondan ibarətdir ki, Ermənistana və Qarabağ separatçılarına verilən vəsaiti azaltmaqla ABŞ onları, bir növ, cəzalandırır: "Belə ki, Ermənistanın Suriyaya Rusiya tərkibində humanitar missiya göndərməsi ABŞ-ı narazı saldığından, fövqəldövlət rəsmiləri belə bir qərara gəlmiş ola bilərlər. Üstəlik, Qarabağa göndərilən pullar heç də təyinatı üzrə xərclənmir, ya Qarabağdakı rejim korrupsiya yolu ilə onu ələ keçirir, ya da Qərb təşkilatları müəyyən xidmətlərin əvəzi olaraq mənimsəyirlər. Məsələn, Qarabağda piyadalar əleyhinə minaların təmizlənməsi ilə məşğul olan "HALO Trust" təşkilatı erməni diasporu ilə əməkdaşlıq çağırışı edib və belə bir həyəcan təbili çalıb ki, minalardan zərərçəkən şəxslərin adambaşına düşən sayına görə Dağlıq Qarabağ hətta Əfqanıstanı da üstələyir. ABŞ Erməni Milli Assambleyası təmsilçiləri Ermənistana və Dağlıq Qarabağa səfərləri çərçivəsində "HALO Trust"ın nümayəndələri ilə də görüşmüşlər. Lakin hazırda ABŞ USAID proqramı çərçivəsində Qarabağın minalardan təmizlənməsinə görə Konqresin ayırdığı vəsaiti azaltmağı planlaşdırır və bu, erməniləri çox narahat edir. İndiyədək ABŞ-ın Dağlıq Qarabağa birbaşa yardım qismində ayırdığı 2 milyon dolların təxminən 1 milyonu hər il "HALO Trust"un hesabına köçürülürdü. Amerika Erməni Milli Assambleyası ABŞ-ın Qarabağ separatçılarına göstərdiyi yardımın həcmini ildə 5 milyon, Ermənistana yardımların isə ən azı 50 milyon dollara çatdırılmasına çalışırdı. Lakin indi vəziyyət elə dəyişdi ki, nəinki yardımın həcmini 5 milyona çatdırdılar, üstəlik, getdikcə azalma gözlənir. USAID proqramı çərçivəsində Qarabağa yardımın azaldılması, yaxud tamamilə kəsilməsi diaspor ermənilərini təşvişə salıb. Onlar bunun çox ciddi siyasi nəticələrə gətirib çıxara biləcək mesaj olduğunu etiraf edirlər. Yardımların birdən-birə azalmasının səbəbləri müxtəlif ola bilər.




Bako Saakyan namizədliyini verməyəcəyini artıq bildirib. Böyük ehtimalla, 2020-ci ildə separatçı rejim onun yerinə Rusiyanın namizədinin olmasında maraqlıdır və Amerikanın namizədini separatçılar qəbul etmək istəmirlər. Halbuki, bu, ABŞ üçün status-kvonu dəyişmək, Rusiyanın regiondakı mövqelərini zəiflətmək üçün çox vacibdir. Buna görə ABŞ separatçılara yardımı azaltmaqla onlara xəbərdarlıq edir".

Nəzakət Məmmədovanın sözlərinə görə, ABŞ Qarabağda 2020-ci ildə keçiriləcək qondarma "prezident" seçkilərindən istifadə edərək separatçı rejimin başına öz adamını gətirməklə Rusiyanı regiondan sıxışdırmaq, onu Qarabağ məsələsində hegemon statusundan məhrum etmək, Paşinyan iqtidarının təhlükəsizliyini təmin etmək, "Qarabağ klanı"nı zəiflətmək, ordu üzərində nəzarətə yiyələnib Rusiyanın təsirini zəiflətmək, habelə Azərbaycan-İran sərhədinin 132 km-ni, işğalçı ordunun nəzarətindəki hissəsini ələ keçirmək istəyir: "Lakin separatçı rejim Rusiyanın burada mövqelərini qorumaqda maraqlı olduğundan, ABŞ maliyyəni azaltmaqla onlara xəbərdarlıq edir. Dağlıq Qarabağa hazırda ABŞ maliyyə, İngiltərə minaların təmizlənməsi, İran biznes, Rusiya hərbi-siyasi dəstək göstərir, Fransa şəhərləri "qardaşlaşmışdı". ABŞ-ın maliyyə yardımlarını azaltması, Fransa məhkəmələrinin "qardaşlaşma xartiyalarını" ləğv etməsi Qarabağ separatçılarına böyük zərbədir. Lakin ən böyük zərbə Azərbaycanın endirdiyi hərbi zərbələr olmalıdır ki, ərazimizdə kök salmış bu mənfur rejim birdəfəlik yer üzündən silinsin".

*Məhəmmədəli*
*QƏRİBLİ*

# Almaniyadan sonra İspaniya da ABŞ-ın Hörmüz boğazında anti-İran missiyasına qarşı çıxdı...

**ABŞ-ın İran üzərində maksimum təzyiq yaratmaq üçün Hörmüz boğazına göndərmək istədiyi ortaq hərbi dəniz qüvvəsi missiyasına İspaniyanın daxil olmayacağı iddia edilir.**



Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, İspaniya qəzeti "El Confidencial" diplomatik mənbələrə əsaslandırdığı xəbərdə İspaniyanın Hörmüz boğazında birgə missiyaya qoşulmaq üçün ABŞ-ın rəsmi təklifini rədd etdiyini yazıb.

Hörmüz boğazında birgə missiya üçün ABŞ-dan rəsmi təklif aldıqlarını təsdiqləyən İspaniya diplomatik mənbələri "Hələlik ABŞ-ın liderlik etdiyi bir missiyada iştirak etmək kimi bir niyyətimiz yoxdur" deyə bildiriblər.

Xəbərdə, Almaniya kimi, İspaniyanın da ABŞ-ın Hörmüz boğazındakı birgə missiya təklifini rədd etdiyi, Fransanın isə hələ də bu təklifi dəyərləndirdiyi irəli sürülür.

Almaniya xarici işlər naziri Heiko Maas Polşanın paytaxtı Varşavada verdiyi açıqlamada ABŞ tərəfindən təqdim olunan və planlaşdırılan missiyada Almaniya hökumətinin iştirak etməyəcəyini deyib.

İspaniya ABŞ-ın İrana təzyiq etmək üçün "USS Abraham Lincoln" təyyarə gəmisinin liderliyində Orta Şərqə göndərilən Döyüş Qrupundakı freqatı - "Mendez Nunez"i 14 may tarixində Hörmüz boğazına doğru hərəkət edən zaman geri çəkmişdi.

Müdafiə naziri Marqarita Robles bununla bağlı qərarın "siyasi deyil, texniki bir qərar" olduğunu deyib.

# Avtomobil ixracı məsələsində ABŞ-ın Ermənistana ilk iqtisadi sanksiyasının əlamətləri...

**ABŞ-dan Ermənistana avtomobil idxal edənlər üçün ciddi problemlər mövcuddur. Bu barədə ölkənin "Joxovurd" qəzeti yazıb. Qəzetin yazdığına görə, avqustun 20-dən etibarən idxalçıların internetdə şəxsi səhifələri bağlanacaq. Yəni bu o deməkdir ki, ABŞ-dan avtomobil idxal edən Ermənistan şirkətləri artıq auksionlarda iştirak edə bilməyəcəklər.**

*"Vaşinqton bu ölkəyə qarşı müxtəlif iqtisadi xarakterli təsir rıçaqlarını işə salır"*

***Ramil Hüseynov:** "Avtomobil idxalı ilə bağlı sözügedən qərar Paşinyan hakimiyyətinə bir mesajdır"*




Qəzet onu da qeyd edir ki, təxminən bir həftədir Yaponiya istehsalı olan avtomobillərin idxalına dair hərraclara girişin qarşısı alınıb: "İdxalçıların əksəriyyətinin səhifələri bir neçə gün əvvəl bağlandı, yalnız bəzi təsərrüfat subyekti "üzüb" qaldı və nə qədər davam edəcəyi bilinmir. Mütəxəssislər bu vəziyyətin səbəbini yeni avtomobillərə görə gömrük rüsumlarının 2020-ci il yanvarın 1-dən gözlənilən artımı ilə əlaqələndirirlər".

Görünən odur ki, Ermənistanla bağlı ABŞ-da yeni vəziyyət yaranır. ABŞ Ermənistana yardımları azaldıb. Belə ki, Birləşmiş Ştatlar separatçı "DQR"ə də maliyyə yardımını azaldıb. Məlumata görə, ABŞ hökuməti iki ay ərzində marionet rejimə maliyyəni dayandırmağı planlaşdırır. ABŞ administrasiyası işğal altındakı Qarabağ ərazisində minaların təmizlənməsi üzrə dəstəyini dayandırır. Məhz bundan sonra ABŞ-dan Ermənistana avtomobil idxalına məhdudiyyətin qoyulmasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Ermənistana ABŞ-da avtomobil auksionlarında iştiraka məhdudiyyətin qoyulması maraqlı prosesdir: "Bu ondan xəbər verir ki, Ermənistandakı Paşinyan hakimiyyəti, bütün mənalarda, Vaşinqtonda etimadını itirir. Çünki ard-arda bunların baş verməsi təsadüfi deyil. Görünən odur ki, ABŞ Ermənistana qarşı müxtəlif iqtisadi xarakterli təsir rıçaqlarını işə salır. Bu günlərdə separatçı quruma humanitar xarakterli maliyyə yardımı dayandırıldı. İndi də avtomobil idxalı ilə bağlı sözügedən qərar Paşinyan hakimiyyətinə bir mesajdır. Nəzərə almaq lazımdır ki, ABŞ Ermənistanın inkişafının yalnız Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra mümkün olacağını düşünür. Bununla bağlı ABŞ dəfələrlə Ermənistana işarə edib. Ancaq Paşinyan hakimiyyətinin yeritdiyi siyasət göstərdi ki, Ermənistan kompromislərdə maraqlı deyil. Hesab edirəm ki, bu amil ABŞ-ın mövqeyində Ermənistana münasibətdə dəyişikliklərə səbəb olur.

ABŞ hazırda Azərbaycana müəyyən mənada Gürcüstandan da çox önəm verir. Bu isə o deməkdir ki, ABŞ üçün Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. ABŞ-ın terrorizmlə mübarizədə Azərbaycanla əməkdaşlığı genişləndirməsi, bununla bağlı maliyyə yardımını təxminən beş dəfə artırması dediklərimizi sübut edir".

***Vidadi ORDAHALLI***

# Rusiya ilə ABŞ arasında 32 illik raket sazişi rəsmən ləğv edildi

**Rusiya Xarici İşlər Nazirliyi SSRİ dövründə ABŞ-la imzalanmış "Yaxın və orta mənzilli raketlərin ləğvi" haqqında sazişin (İNF) rəsmən ləğv edildiyini açıqlayıb. ABŞ dövlət katibi Mayk Pompeo isə ABŞ-ın Rusiyaya verdiyi vaxtın bitdiyini və ölkəsinin razılaşmadan çəkildiyini bəyan edib.**



NATO da razılaşmanın bitdiyini və məsuliyyətin Rusiyanın üzərində qaldığını bildirib.

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, "Yaxın və orta mənzilli raketlərin ləğvi" haqqında saziş 8 dekabr 1987-ci ildə ABŞ Prezidenti Ronald Reyqan və Sovet İttifaqının (SSRİ) lideri Mixail Qorbaçov tərəfindən imzalanmışdı. Saziş 500-5500 kilometr mənzilli, qurudan atıla bilən bütün orta mənzilli nüvə və ballistik raketlərin qadağan edilməsini nəzərdə tuturdu.

Ancaq bu ilin əvvəlində ABŞ Rusiyanı yeni tipli raket hazırlamaqda günahlandıraraq sazişi dayandırdığını bildirib. Rusiya isə ABŞ-ın iddialarını rədd edir və Birləşmiş Ştatları sazişi pozmaqda ittiham edir.

ABŞ prezidenti Donald Tramp fevral ayında açıqlamasında ən geci 2 avqusta qədər razılaşmanın şərtlərinə əməl etməyə çağırıb. Rusiya prezidenti Vladimir Putin də ABŞ-ın qərarından dərhal sonra saziş çərçivəsində Rusiyanın öhdəliklərini dayandıran fərmanı imzalayıb.

Bu gün isə Rusiya Xarici İşlər Nazirliyi razılaşmanın başa çatdığını rəsmən elan edib. "Sovet İttifaqı və ABŞ tərəfindən imzalanmış, orta və qısa mənzilli raketlərin məhv edilməsini nəzərdə tutan saziş Amerika tərəfinin təşəbbüsü ilə 2 avqust 2019-cu il tarixindən etibarən qüvvəsini itirmiş sayılır", - açıqlamada bildirilir.

Rusiyadan gələn açıqlamanın ardından ABŞ dövlət katibi Mayk Pompeo da Twitter hesabında ABŞ-ın Rusiyaya verdiyi vaxtın bitdiyini və ölkəsinin razılaşmadan çıxdığını bəyan edib. "Başqaları razılaşmanı pozursa ABŞ bu razılaşmada qalmayacaq" - deyən Pompeo, bütün məsuliyyətin Rusiyanın üzərinə düşdüyünü bildirib.

Məsələ ilə bağlı NATO baş katibi Yens Stoltenberq də yazılı açıqlama yayıb. Açıqlamada deyilir: "INF razılaşmasının müddəti bu gündən etibarən sona çatdı. Razılaşmanın sona çatmasına görə yalnız Rusiya cavabdehdir. ABŞ-ın əməl etdiyi razılaşmaya Rusiya əməl etmir, bu vəziyyət belə davam edə bilməz".

Açıqlamada NATO-nun "ölçülmüş və məsuliyyətli bir şəkildə" Rusiyanın 9M729 raketinin yaratdığı risqlərə cavab verəcəyi bildirilir.

# Samir Şərifov dövlət müşavirəsində "şok bəyanat" verdi - "Cənub Qaz Dəhlizi"nin "üstündə əsənlərə" mesaj...

**Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı 2,75 milyard dollarlıq borclanmadan imtina edib. Bu fikirləri maliyyə naziri Samir Şərifov Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə səsləndirib.**

*"Başda SOCAR olmaqla əsasən də TANAP layihəsində optimal xərcləmələr vasitəsilə ciddi nəticələr əldə edib"*

Onun sözlərinə görə, dövlət tərəfindən bəzi əhəmiyyətli layihələrə dövlət zəmanətləri verilir: "O cümlədən, belə mühüm layihələrdən biri də "Cənub Qaz Dəhlizi" layihəsidir. Sevindirici haldır ki, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmayıb, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılıb, yəni onlar bu vəsaitləri ayırmağa hazır idilər. Amma birinci paket olaraq biz 2 milyard dollarlıq borclanmadan imtina etdik, buna ehtiyac yaranmamışdı. İndi də əlavə sevindirici haldır ki, artıq Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MIGA ilə bizim "Cənub Qaz Dəhlizi" şirkəti tərəfindən kredit müqaviləsi bağlanıb - 750 milyon dollar məbləğində. İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o, vəsait hesabına bu borcları təmin edir".

Görünən odur ki, bu istiqamətdə işlərin uğurlu alınması Azərbaycanın əlavə borclanmaya getməsinə şərait yaratmayıb. Bu da, bütövlükdə, müsbət tendensiya olmaqla yanaşı, yaxşı göstəricidir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bunu bir sıra amillərlə əlaqələndirdi: "Cənub Qaz Dəhlizi" QSC bununla bağlı bir neçə ay əvvəl müəyyən açıqlamalar vermişdi. Məlum oldu ki, layihə ilə bağlı əvvəldən proqnozlaşdırılan kredit resurslarına ehtiyac yoxdur. Bunun başlaca səbəbi onunla bağlıdır ki, CQD özünün əvvəlki qiymətləndirilməsindən təqribən 5 milyard dollar ucuz başa gəldi. Layihə ucuz qiymətə başa gəlirsə, onda yeni kredit resurslarına ehtiyac yoxdur.

***İlham Şaban:** "Bunun başlıca səbəbi onunla bağlıdır ki, CQD özünün əvvəlki qiymətləndirilməsindən təqribən 5 milyard dollar ucuz başa gəldi"*




Azərbaycanın ümumi payı nəzərə almaqla bu iş görülür. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Azərbaycan başda SOCAR olmaqla əsasən də TANAP layihəsində optimal xərcləmələr vasitəsilə ciddi nəticələr əldə edib. Yəni CQD ilə bağlı xərcləmələri minimuma endirə bilib.

Söhbət rasional xərcləmələrdən gedir. Ona görə də xarici maliyyələşdirmə resurslarına, nəzərdə tutulduğu səviyyədə o resurslardan istifadə etməyə də ehtiyac qalmayıb. Bu da ölkəmizin xarici borclarının aşağı salınmasında xüsusi əhəmiyyətə malikdir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın dövlət borcunun səmərəli idarəçiliyində fantastik nəticə - bir ildə 4 faiz...

**Məlum olduğu kimi, iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib. Prezidentin iştirakı ilə keçirilən müşavirədə bir sıra məsələlərə toxunulub. O cümlədən, Azərbaycanın dövlət borcu haqqında da fikir səslənib.**

*"Ölkə iqtisadiyyatının inkişafı istiqamətində görülən işlər sayəsində dövlət borcu azalıb"*

Prezidenr İlham Əliyev qeyd edib ki, büdcə daxilolmaları artır: "Eyni zamanda, valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız rekord həddə çatıb - 49 milyard dollar səviyyəsindədir. Bu bizim böyük sərvətimizdir, böyük uğurumuzdur. Bu ilin altı ayında valyuta ehtiyatlarımız 4 milyard dollar artıb. Biz bu vəsaitdən çox qənaətlə istifadə edirik. Məhz buna görə hətta böhranlı illərdə, neftin qiyməti aşağı olan illərdə biz öz valyuta resurslarımızı qorumuşuq və artırmışıq. Məqsəd də məhz belə idi ki, biz ildən-ilə öz valyuta ehtiyatlarımızı artıraq və bununla paralel olaraq, xarici dövlət borcumuzu da kifayət qədər əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bir il ərzində xarici borcumuz 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Çünki bəzi ölkələrdə dövlət xarici borcu ümumdaxili məhsuldan da artıq olur, yaxud da ki, ona bərabərdir. Bizdə isə bu, 19 faizdir. Biz bu sahədə bundan sonra da çox diqqətli olmalıyıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür. Çünki bizim öz daxili imkanlarımız var və biz bu imkanlardan istifadə etməliyik".

Ekspertlər bir il ərzində xarici borcun 4 faiz dəyərində aşağı düşməsinin gözlənilən olduğunu deyirlər.

İqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, adambaşına düşən borca görə Azərbaycan dünya ölkələri arasında yaxşı göstəriciyə malikdir: "Eyni zamanda, Azərbaycanın maddi və maliyyə imkanları ötən illərdən fərqli olaraq inkişaf edib. Sevindirici haldır ki, Azərbaycanın maddi durumu inkişaf edib, pul bazası artıb. Neft Fondunda olan yığımların həcmi yüksəkdir. Bu səbəbdən də borclanmanın aşağı olması gözləniləndir".

***Fikrət Yusifov:** "Azərbaycanın valyuta ehtiyatları 49 milyard dollara çataraq, xarici borcu 4 faiz aşağı düşüb"*



Həmsöhbətimiz hesab edir ki, ölkə iqtisadiyyatının inkişafı istiqamətində görülən işlər sayəsində qeyd olunan sahədə irəliləyişlər əldə olunacaq. Ölkənin dövlət borcu azdırsa və ya yoxdursa, bu normal hal kimi dəyərləndirilməlidir".

**İqtisadçının sözlərinə görə, biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Görülən işlər sayəsində Azərbaycanın valyuta ehtiyatları 49 milyard dollara çatıb, xarici borcu 4 faiz aşağı düşüb.**

***Günel CƏLİLOVA***

**Bu gün Azərbaycanın neft məhsullarının ixracında əsas bazarlardan biri qismində qonşu Gürcüstan çıxış edir. Hazırda bu ölkəyə benzin və dizel yanacağı ən sərfəli qiymətlərlə məhz Azərbaycandan gətirilir. Belə vəziyyətdə gürcü hökumətinin "Avro 5" yanacaq standartına keçid niyyəti bu ölkədə ciddi narazılıq yaradıb.**

# İvanişvilinin "avro-5 siyasətinin" bir ucu Gürcüstanın özünü, digər ucu Azərbaycanı vuracaq...

## *Sadə gürcülər isə Azərbaycanı dəstəkləyir*



Qeyd edək ki, Gürcüstan 2020-ci il yanvarın 1-dən dizel yanacağıyla bağlı yeni standartlar müəyyən edib. Yeni tənzimləmələrə əsasən, Gürcüstanda "Avro 4" dizel yanacağı "Avro 5"lə əvəzlənəcək. Ölkə mətbuatı və ekspertlər isə artıq bu qərara qarşı çıxıblar. Onların fikrincə, bu qərar sayəsində ölkənin dizel yanacağına olan tələbatının 40%-ni təmin edən Azərbaycan şirkətləri Rusiya şirkətləriyə əvəzlənəcək. Belə ki, Azərbaycanda "Avro 5" standartı ilə istehsal 2021-ci ildə başlayacaq. Amma gürcüləri narahat edən əsas məqam belə vəziyyətdə qiymətlərin bahalaşmasıdır. Gürcüstanın keçmiş iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia qeyd edir ki, "Avro 5" yanacaq standartına keçid ölkəyə zərər vuracaq. O deyib ki, yeni standartın tətbiqi yanacağın qiymətinin artmasına səbəb olacaq. Keçmiş nazir hökumətin "Avro 5" yanacaq standartına keçidlə bağlı qərarının ona aydın olmadığını qeyd edib: "Gürcüstan Avropa İttifaqı ölkələri kimi zəngin deyil ki, "Avro 5" standartına keçsin. Ən əsası isə odur ki, yeni standart ekologiyaya real təsir etməyəcək. Belə ki, "Avro 4" və "Avro 5" standartları arasındakı fərq çox azdır". Gürcüstanın müxalif Vahid Milli Hərəkat Partiyasından olan deputat Azər Süleymanov hökumətin dizel yanacağı sahəsində son tənzimləmələrinin İvanişvili hakimiyyətinin ömrünü azaldan səbəblərdən biri olacağını deyib: "Heç Avropanın bəzi inkişaf etmiş ölkələri "Avro 5"ə keçməyib. Hesab edirəm ki, İvanişvili hakimiyyətinin çox uzun ömrü qalmayıb. Bu gün Gürcüstan iqtisadiyyatında ciddi problemlər qeydə alınır. Ölkənin bir tərəfində aksiyalar, bir tərəfində kriminal hadisələr baş verir, iqtisadiyyat zəifləyir və ötən əsrin 90-cı illərindəki proseslər yenidən yaşanır. Bu proseslər və Azərbaycanla münasibətlərin korlanmasına edilən cəhdlər Gürcüstana mənfi təsir edəcək. Ölkəsinin 20 faiz torpağını işğal edən Rusiya ilə hansısa münasibətin qurulmasına Gürcüstan vətəndaşlarının əksəriyyəti razı deyil və onların fikirləri ilə İvanaşvilinin fikirləri üst-üstə düşmür". A.Süleymanov belə bir vaxtda Azərbaycanla Gürcüstanın problemlərinin yaranmasında təkcə İvanişvili yox, bir çox hallarda ermənilərin də aktiv rol oynadığını görməyin mümkün olduğunu söyləyib: "Tiflisin zaman-zaman başqa sahələrdə də Azərbaycana hücumuna artıq şahid oluruq. Bir neçə gün öncə Batumidə İvanişvilinin "peyk"i olan Vətənpərvərlər Alyansı Partiyası elə İvanişvilinin dəstəyi ilə aksiya keçirdi. Bu aksiya iştirakçılarının əlindəki pankartlarda Azərbaycana qarşı heç də ürəkaçan sözlər yazılmamışdı. Onlar bu yolla ictimaiyyətin fikrini ölkənin daxilindəki problemlərdən yayındırmağa çalışırlar. Biz çox istərdik ki, hər iki dövlətin maraqları nəzərə alınmaqla bu problemlər həll edilsin. Bu problemlərin yaranmasında ermənilər də müəyyən rol oynayır. Onlar iki dövlət arasında münasibəti korlamağa çalışırlar. Hesab edirəm ki, siyasətdən uzaq olan hansısa oliqarx Gürcüstanı çökdürə bilməyəcək".

Gürcü ekspert Vaso Uruşadze də baş verənlərin ölkə iqtisadiyyatı üçün təhdid yaratdığını bildirir. Onun sözlərinə görə, Gürcüstan hökumətinin dizel yanacağı ilə bağlı tətbiq etdiyi yeni standartdan istifadə edərək, Azərbaycan şirkətləri yerinə bazara Rusiya şirkətlərini buraxmaq istəməsi gürcü iqtisadiyyatı üçün təhdid yaradır: "Biz arxasında kölgə bəyanatların dayandığı yaşıl iqtisadiyyat haqqında çox bəyanatları xatırlayırıq. Bu halda biz əminik ki, bu belədir. Belə ki, real olaraq "Avro-5" standartlı dizel yanacağının tətbiqinin Gürcüstanda olan avtoparka necə təsir etməsinə dair tədqiqat mövcud deyil. Burada söhbət neft məhsulları bazarının yenidən bölüşdürülməsindən gedir. Hər kəsə yaxşı bəllidir ki, strateji tərəfdaşımız olan Azərbaycan Gürcüstana dizel yanacağının 40%-ni tədarük edir. Bu nizamlamanın tətbiqi sayəsində Azərbaycanın neft məhsulları tam olaraq bazardan çıxacaq. Hər kəsə bəllidir ki, 2021-ci ildən Azərbaycan "Avro-5" standartına keçir, amma burada bir il udmaq lazımdır ki, Azərbaycan bazardan düşsün və onu Rusiya şirkətləri əvəz etsin. Bu şirkət "Rosneft" və onun Gürcüstandakı nümayəndəsi "Petrokas"dır ki, onlar da ölkənin qeyri-rəsmi hakimləri ilə əlaqəlidir". Gürcüstanın Beynəlxalq Tədqiqatlar və Proqnozlaşdırma Mərkəzinin vitse-prezidenti Nika Şenqeliya isə Gürcüstan hökumətinin yeni standartlara keçidi bir il müddətinə - Azərbaycanın "Avro-5" standartlı dizel tədarük etmək imkanı yarananadək təxirə salmaq imkanının olduğunu bildirib: "Əgər belə olmasa, yanacağın qiyməti bazarda daha da bahalaşacaq. Bu bahalaşma 20% miqdarında olacaq". Bununla yanaşı, gürcü mediası yazır ki, Rusiya şirkətlərinin gəlişi Moskvanın Tiflisə təzyiqləri üçün əlavə imkan yaradacaq. Burada o da xatırlanır ki, artıq Moskvanın son turist qadağası Gürcüstana əhəmiyyətli dərəcədə zərər vurub. Belə ki,

Gürcüstandan Rusiyaya birbaşa aviareyslərə qadağa qoyulmasından sonra təkcə "Georgian Airways" aviaşirkətinin itkiləri 25 milyon dollara çatıb. Şirkət satılmış biletlərin 80 faizini geri almağa məcbur olub. Bundan başqa, aviabilet almaq istəyənlərin sayı kəskin şəkildə azalıb. "Georgian Airways"in rəhbərliyi Gürcüstan hökumətinə müraciət edərək maliyyə yardımı istəyib. Xatırladaq ki, Rusiya-Gürcüstan münasibətlərində gərginlik iyunun 20-də Tiflisdə antihökumət və antirusiya aksiyaları ilə başlayıb. Mitinq iştirakçıları Rusiyadan olan nümayəndə heyətinin Parlamentlərarası Pravoslav Assambleyasının sessiyasında iştirakına etiraz edib. Ölkədə hökm sürən qarışıqlıq fonunda Gürcüstan Prezidenti Salome Zurabişvili Rusiyanı "düşmən" adlandırıb və bəyan edib ki, Moskva ölkə ictimaiyyəti arasında parçalanma yaratmaqda maraqlıdır.

**Rusiya prezidenti Vladimir Putin gürcüstanlı həmkarının bu bəyanatından sonra iyulun 8-dən etibarən iki ölkə arasında hava əlaqəsinin dayandırılması haqqında fərman imzalayıb. Statistikaya əsasən, keçən il Gürcüstana gələn turistlərin beşdə birini Rusiya vətəndaşları təşkil edib. Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bəyan edib ki, Gürcüstanda vəziyyət normallaşandan sonra ölkələr arasında hava əlaqəsi bərpa olunacaq. İndi bütün bunlardan sonra Rusiya şirkətlərinin ölkənin enerji bazarına buraxılması Gürcüstan üçün yeni ciddi problem sayılır.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı İrəvanın məkrli planlarını pozur - sərhədlərdə...

**Son dövrlərdə cəbhədə düşmən tərəfindən atəşkəsin pozulması hallarının sayının yenidən artması və müxtəlif təxribatlar törədilməsi yeni genişmiqyaslı toqquşmaların başlana biləcəyinə dair xəbərdarlıqları da çoxaldıb. Hətta iş o yerə çatıb ki, məsələyə Rusiya Xarici İşlər Nazirliyi də münasibət bildirib.**

Rusiyanın Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bu xüsusda bildirib ki, Moskva Dağlıq Qarabağ münaqişəsi bölgəsində gərginliyin daha da artmasına qarşıdır, tərəfləri güc tətbiq etməməyə çağırır: "Ermənistan - Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsindən narahatıq. Bu gərginlik atəşkəs rejiminin davamına dair bu yaxınlardakı razılaşmalara, siyasi çözüm əldə etmək niyyətilə bağlı verilən açıqlamalara ziddir. Biz qarşıdurma tərəflərini təmkinli olmağa, güc tətbiq etməməyə, vəziyyəti sabitləşdirmək istiqamətində addımlar atmağa çağırırıq".

Xatırladaq ki, iyul ayının ortalarından etibarən erməni hərbi qüvvələri Azərbaycan sərhədçilərinin xidmət etdiyi Ermənistan-Azərbaycan sərhədinin Qazax istiqamətində silahlı təxribatlar həyata keçirməyə başlayıb. Rusiya və digər vasitəçilərə də atəşkəsin pozulmasının və təxribatların törədilməsinin Ermənistan tərəfindən həyata keçirildiyi dəqiq bəllidir. Digər tərəfdən, məsələnin maraq doğuran tərəfi son dövrlərdə ermənilərin münaqişəni Qarabağdan dövlətlərarası sərhədə keçirmək niyyətidir. Yəni onlar atəşkəsi təkcə Azərbaycan ərazisində pozmur, dövlətlərarası sərhəddə də bunu edirlər. Ekspertlər vurğulayır ki, bu planda İrəvan müəyyən məkrli məqsədlər güdür. Hesab edilir ki, ilk hədəflərdən biri diqqəti Qarabağ cəbhəsindən yayındırmaqdır. Belə ki, Azərbaycan ordusunun cəbhə boyu ərazilərə nəzarət etməsi, xüsusilə "aprel müharibəsi"ndən sonra vəziyyəti tam ələ alması işğalçı ölkənin hərbi birləşmələrini çətin vəziyyətə salıb. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejimin "hərbi-siyasi rəhbərliyi" tez-tez təmas xəttində Azərbaycan tərəfinin hərbi-mühəndislik işləri həyata keçirdiyindən, mövqelərini addım-addım irəli çəkdiyindən şikayətlənir. Belə vəziyyətdə döyüş cəbhəsinin Azərbaycan-Ermənistan sərhədinə köçürülməsi Bakının diqqətini Qarabağ istiqamətindən yayındıra bilər. Amma hərbi ekspertlər hesab edir ki, Ermənistan burada ciddi yanlışlığa yol verir. Çünki Azərbaycanın malik olduğu hərbi qüvvə ona həm Qarabağ cəbhəsinə, həm də bütün sərhədləri boyu nəzarət üçün bütün lazımi imkanlar yaradır. O da heç kimə sirr deyil ki, Qarabağ cəbhəsində güclü Azərbaycan ordusunun önündə dayana bilməyən düşmən həm də sərhəd təxribatlarına əl atmaqla real vəziyyəti birbaşa Ermənistandakı insanlara da göstərmək istəyir. Burada əsas məqsəd düşmənin verdiyi itkilərin obyektiv səbəbdən doğduğunu erməni cəmiyyətinə nümayiş etdirməkdir. Digər tərəfdən, Ermənistanın təxribatlardakı əsas məqsədlərindən biri də diqqəti ölkə daxilindəki ağır sosial-iqtisadi durumdan yayındırmaqdır. Amma o da aydındır ki, burada ən başlıca niyyət təxribatı sərhədə daşımaqla Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) fakt qarşısında qoymaq və ondan Azərbaycana qarşı istifadə etməkdir.

Qeyd edək ki, Ermənistanın bütün cəhdlərinə rəğmən, KTMT Qarabağ münaqişəsinə müdaxilə etmir. Əksinə, indiyə qədər KTMT Bakı və İrəvan arasında seçim məsələsində həmişə Azərbaycanın mövqeyini müdafiə edib. Buna səbəb rəsmi Bakının uğurlu manevrləri, Azərbaycanın KTMT-yə üzv dövlətlərlə qurduğu diplomatik münasibətlərdir. İrəvan Qarabağ cəbhəsində hərbi toqquşmalar zamanı KTMT-nin dəstəyinə bel bağlasa da, təşkilatın nizamnaməsi də buna imkan vermir. Nizamnaməyə görə, yalnız Ermənistanın dövlət sərhədinə təhlükə yaranarsa, təşkilat hərəkətə keçə bilər. Dağlıq Qarabağ isə Azərbaycan torpağıdır və KTMT üzvləri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Belə bir situasiyada KTMT-ni fakt qarşısında qoymaq və dəstəyini almaq üçün Ermənistana Azərbaycanla sərhəddə hərbi gərginlik lazımdır. Hesab edilir ki, elə sərhəd təxribatları da buna hesablanıb. Amma ötən dövrdə bu istiqamətdə baş verənlər təsdiq edir ki, Ermənistanın bu gedişləri ucuz blefdən başqa bir şey deyil və onun niyyətləri, Rusiya da daxil olmaqla, KTMT-nin bütün üzvlərinə yaxşı məlumdur. Bunu rus hərbi ekspert Aleksey Xlopotov da təsdiq edir. Onun sözlərinə görə, son günlər bilavasitə Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsi Ermənistandakı daxili siyasi vəziyyətin pisləşməsinin nəticəsidir: "Bir neçə gün əvvəl Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın "Ermənistanın səsi" qəzetinə verdiyi müsahibəyə diqqət yetirmək lazımdır. Onun Ermənistandakı mövcud hakimiyyət böhranını qiymətləndirməsi ilə razılaşmamaq mümkün deyil. Mən də dəfələrlə demişəm ki, Ermənistan hökuməti öz hərəkətləri ilə ölkəni özünütəcridetmə rejiminə salıb. Belə şəraitdə dövlətin inkişafı mümkün deyil. İqtisadiyyatdan demoqrafiyaya qədər hər şey durğunluqdadır. Belə şəraitdə insanlar artıq siyasətçilərin demaqogiyasına inanmır. Onlar hakimiyyətdə qalmaq üçün daha nə edə bilərlər? Ən asan yol əhalini xarici düşmənlərlə qorxutmaqdır. Eyni zamanda, sərhəddə təxribatlar təşkil edərək potensial müttəfiqlərin diqqətini cəlb etmək də mümkündür. Çünki Qarabağda təxribatlar artıq keçmir. Beynəlxalq birlik Ermənistanı işğalçı ölkə kimi tanıyaraq birmənalı qiymətini verib. Buna görə də Azərbaycan bu torpaqları, hətta güc tətbiq etməklə geri qaytarmaq hüququna malikdir. Düşünürəm ki, çoxları bu cür hərəkətlərə göz yumacaq. Maksimum mətbuatda səs-küy yaradacaqlar. KTMT statusu isə Qarabağa şamil edilmir. Buna görə hazırda Ermənistan sərhəddə Azərbaycanla birbaşa qarşıdurma yaratmağa çalışır".

Ekspertin sözlərinə görə, erməni hərbçiləri sərhəddə gərginliyin birbaşa Azərbaycan snayperlərinin hərəkətləri ilə əlaqəli olduğunu söyləyərək özlərini haqlı sayırlar: "Beləliklə, erməni xuntası məsuliyyətdən yayınmağa çalışır. Ermənilər deyirlər ki, "düşmən mühəndislik işlərinin aparılmasına mane olmağa çalışır", yəni atəş mövqelərini təchiz etməyə imkan vermirlər. Lakin nədənsə, erməni hərbçiləri qəflətən bu cür işləri aparmağa ehtiyac duyulmasının səbəbləri barədə susmağa üstünlük verir. Aydındır ki, bu "mühəndis işləri", Azərbaycan sərhədçilərinə atəş açılması eyni zəncirin bağlantılarıdır, yəni genişmiqyaslı təxribatın hazırlanmasıdır. Azərbaycanla hərbi münaqişə yenidən başlayacağı təqdirdə, İrəvan siyasi və informasiya baxımından Avropa və ABŞ-a, hərbi baxımdan isə Rusiya tərəfindən göstəriləcək kömək və dəstəyə ümid edir. Lakin Ermənistanın KTMT-də iştirakı ona kömək etməyəcək - Belarus və Qazaxıstan kimi Avrasiya İttifaqının aparıcı gücləri (həm iqtisadi, həm də hərbi) bu təxribatda Ermənistanı dəstəkləməyəcək. Üstəlik, siyasi baxımdan daha güclü əlaqələri olan Azərbaycana dəstək vermə ehtimalı yüksəkdir. Rusiya maksimum siyasi yolla Azərbaycanı Ermənistanın tam hərbi məğlubiyyətindən çəkindirməyə çalışacaq. Rusiya daxili problemləri üzündən silahlı qüvvələrindən istifadə edərək bu silahlı qarşıdurmaya müdaxilə etməyəcək".

Fakt budur ki, Rusiya Federasiyasındakı daxili siyasi vəziyyət də rifahdan uzaqdır. Suriyadakı hərbi əməliyyatlar və Donbasdakı tanınmayan qurumlarda rejimi dəstəkləmək yoxsul əhali kütlələri arasında çox da coşqu yaratmır. Moskvanın sadəcə başqa bir hərbi kampaniyaya imkanı çatmaz. Kreml iqtisadi cəhətdən güclü olan Azərbaycanla əlaqəsini kəsməyə getməyəcək". Ekspert məsələ ilə bağlı "ordu" portalına açıqlamasında vurğulayır ki, Ermənistana Qərb də kömək etməyəcək: "O, Ermənistandan yalnız Rusiyaya təzyiq elementi kimi istifadə edir, müqavilə və ittifaqları pozmağa məcbur edir, lakin bunun əvəzində heç bir şey təklif etmir. Buna görə də Qərbə olan ümidlər erməni siyasətçilərinin dərin səhvidir. "Qızardılmış ət" iyi gələn kimi ABŞ və Avropa Paşinyanı tərk edəcək. Bunun yaxşı bir nümunəsi Ukraynadır. Ümumiyyətlə, bəzən məndə Ermənistanın müəyyən bir özünü məhvetmə mexanizmini işə saldığı təəssüratı yaranır - nə etsələr vəziyyət daha da pisləşir. Ermənistanın özü üçün bu daha pisdir. Erməni xalqı daha nə qədər dözə bilər? Mən falçı sayılmaq istəmirəm, lakin vəziyyətin inkişafı Paşinyanın bir ildən çox vaxtı qalmadığını göstərir. Bu müddət ərzində müxalifət möhkəmlənəcək və sonra Ermənistan yenidən qaynar qazana çevriləcək. Üstəlik, hərbi təxribatlarla insanların diqqət vektorunu daxili problemlərdən xarici düşmənə çevirmək cəhdi Paşinyan üçün təmiz intihar olardı. Hərbi gücdən danışırıqsa, hazırda Ermənistanın mövcudluğu yalnız Azərbaycan rəhbərliyinin xoş iradəsinin nəticəsidir. Ümid edirik ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna "İrəli!" əmrini verməməsi üçün dözümü və səbri olacaq. Lakin Paşinyan da qonşusunun səbrinin hüdudsuz olmadığını başa düşməlidir". Bütün bunlar bir daha təsdiq edir ki, əslində, cəbhənin istənilən istiqamətində törədilən təxribat düşmənə olduqca baha başa gəlmək iqtidarındadır. Hər halda, bunun aprel döyüşləri kimi real təcrübəsi var. Bu mənada aydındır ki, getdikcə güclənən Azərbaycan istənilən vaxt hərbi əməliyyatlar vasitəsilə qarşıya qoyduğu məqsədə nail olmaq iqtidarındadır. Rəsmi Bakı indilikdə Ermənistanın, eləcə də vasitəçi ölkələrin Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli üçün real imkanlara əl atacağına ümid edir. Amma yaxın tezlikdə bu baş verməsə, Azərbaycan hərbi gücə əl atmaq məcburiyyətində qalacaq. Bu, Ermənistan və onun havadarlarına da yaxşı məlumdur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Köçəryan Paşinyana qarşı partiyaların "sentyabr zərbə bloku"nu yaradır

## *Payızda Ermənistan yenidən qarışacaq*

**"Qarabağ klanı"nı getdikcə daha çox sıxışdıran Ermənistanın baş naziri Nikol Paşinyana qarşı işğalçı ölkədə yeni qüvvələr birliyi formalaşmaqdadır. "Past" nəşri bu fonda yazır ki, Ermənistanın daxili siyasi həyatında bu payız, xüsusilə müxalifət sahəsində ciddi irəliləyişlərin olacağı gözlənir.**

Bununla bağlı yeddi partiyanın oktyabrda birləşmə haqqında bəyannamə imzalayacağı bildirilir. Lakin birləşmiş siyasi qüvvələrin real sayı 20-dən çox olacaq. Partiyalar siyasi hədəflərini əks etdirən "işçi sənədi" təqdim edəcəklər. Yeni bloka tanınmış siyasətçilər, bir sıra ictimai təşkilat və ekspert cəmiyyətlərinin əsas nümayəndələri daxil olacaq.

Məqalədə qeyd olunub ki, hazırda səhnəarxası danışıqlar gedir. Qeyd edək ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan da bu günlərdə verdiyi müsahibədə hakimiyyətin məsələsinin küçələrdə, növbədənkənar seçkilərdə həll olunacağını bildirmişdi. Sabiq prezident onu da qeyd etmişdi ki, yüksək ehtimalla, ölkədə növbədənkənar parlament seçkiləri keçiriləcək: "Seçicilər populist siyasətçilərin boş vədlərindən təngə gəliblər və seçkilərdə bunu aydın ifadə edəcəklər". Onun sözlərinə görə, Ermənistan müxalifətinin birləşməsi üçün çox əlverişli şərait yaranıb: "Hakimiyyətə qarşı çıxış edən müxalifətin müxtəlif mərkəzləri olacaq, lakin onların arasında fəal qarşılıqlı fəaliyyət yaranacaq. Ölkədə sağlam qüvvələrin konsolidasiyasına böyük ehtiyac duyulur. Bu proses parlament müxalifətinin də fəallaşmasına səbəb olacaq, əks halda onlar öz elektoratını itirəcək". Köçəryanın sözlərinə görə, payızda müxalifət düşərgəsində hakimiyyətə qarşı birləşmə prosesi başa çatacaq, siyasi mübarizə isə daha sistemli və genişmiqyaslı xarakter alacaq. Bu açıqlamalar fonunda hesab edilir ki, birləşməyə hazırlaşan siyasi qüvvələrin rəhbəri elə Köçəryanın özü olacaq. Rusiyanın Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin analitiki Mixail Neyjmakov hesab edir ki, bu vəziyyətdə Nikol Paşinyanı heç də xoş günlər gözləmir. Xüsusən də İcevanda və Göyçə gölü ətrafında əhali ilə qarşıdurmanın da şiddətlənməsi Paşinyana qarşı olan qüvvələr üçün əlavə şans yaradır: "Ənənəvi olaraq məhz iri şəhərlərdə, ilk növbədə, əhalinin üçdə birinin yaşadığı İrəvanda etiraz aksiyalarının keçirilməsi Ermənistan hakimiyyəti üçün ciddi problemə çevrilir. 2015-ci ildə enerji tariflərinin artırılmasına qarşı etiraz aksiyasını xatırlayaq. İrəvan, Gümrü və Vanadzor aksiyaların mərkəzinə çevrilmişdi. Yaxud 2018-ci ildə "məxməri inqilabı"n başlanğıcında əsas hadisələrdən biri olan Gümrüdən İrəvana yürüşü qeyd etmək olar. Ölkənin məhz üç ən böyük şəhərindən birində polis əməkdaşlarının sərt hərəkətləri ilə bağlı səs-küylü insidentlər Nikol Paşinyan üçün daha ciddi problemə çevrilə bilərdi. Hadisələrin bu cür gedişatı etiraz aksiyalarının katalizatoruna, hökumət üçün nəzərəçarpan risqlər daşıyan daha irimiqyaslı nümayişlərə çevrilmə ehtimalı var idi. İndi Paşinyanın əleyhdarları hadisələri məhz bu istiqamətə yönəltməyə çalışırlar. Sosial-iqtisadi problemlərin dərinləşməsi onlar üçün əlavə şans yaradır".



Onun sözlərinə görə, Ermənistan baş nazirinin rəqibləri Paşinyanın fəal tərəfdarlarının küçə aksiyalarına səfərbərlik imkanlarının xeyli azaldığına nə qədər çox əmin olsalar, onların Paşinyanın mövqeyinin möhkəmliyini yoxlamaq cəhdləri bir o qədər fəal olacaq: "Dünya təcrübəsi göstərir ki, etiraz dalğası fonunda hakimiyyətə gəlmiş müxalif siyasətçi üçün küçə aksiyalarına çıxmağa hazır olan tərəfdarlarının fəal özəyi ciddi dağılanda, siyasi cəhətdən sağ qalmaq üçün güc strukturlarına bel bağlama nəzərəçarpacaq dərəcədə böyük rol oynamağa başlayanda hakimiyyəti itirmə təhlükəsi xeyli artır".

Ermənistanın Siyasi Proqramlaşdırma Mərkəzinin rəhbəri Vladimir Sarkisyan isə qeyd edir ki, ötən il "küçə inqilabı" ilə hakimiyyətə gələn Nikol Paşinyanın ermənilərə "vəd etdiyi gələcəyi" unutması, əksinə, "vəd olunan gələcək" uğrunda küçə mübarizəsinə qoşulanların bu gün ac qalması xalqı hiddətləndirib. Onun sözlərinə görə, İcevanda "çörəyi ağacdan çıxanlara" qarşı polis zorakılığı və Paşinyanın bu zorakılığı açıq şəkildə dəstəkləməsi ermənilərin "inqilab eyforiyası"nı alt-üst etdi. Xüsusilə çörək uğrunda etiraz edənlərə qarşı hücuma Ermənistan polisinin rəhbəri Valeri Osipyanın rəhbərlik etməsi bu ölkənin polis dövləti kimliyindən çıxa bilmədiyini göstərdi: "Hər şeyin - "yaşıllığın müdafiəsi" adı altında insanlara hücumun əsl səbəbi yeni hökumətin pul siyasətidir. Hökumət yaşıllığı müdafiə etmir, əksinə, ağac sexlərinin meşədən kəsdikləri ağaclara görə cərimə adı ilə pul ödəməsini istəyir. Halbuki, Paşinyanın İcevanda hücum etdiyi sadə ermənilər ötən il onun "küçə inqilabı"na qızğın dəstək verirdilər. Şirak vilayətinin Bardzraşen kəndinin sakinləri də Nikola sona qədər dəstək vermişdi. Bu gün onlar aclıqla mübarizə aparır. Kənd sakinləri danışırlar ki, onların problemləri ilə heç kim maraqlanmır. İnqilabdan il yarım keçir, artıq ermənilər yenidən inqilab etmək haqda düşünürlər. Çünki Sarkisyanın hərbi xuntasından xilas olsalar da, Paşinyanın yalançı demokratiyası ilə üzləşdilər. Ölkədən qaçanların sayı getdikcə çoxalır, intiharların sayı artır, bölgələrdə əhalinin sayı sürətlə azalır, sadə insanların qazanc yerləri hökumətin müdaxiləsi ilə ləğv olunur və bütün bunların fonunda İrəvanda yeni oliqarxiya sistemi formalaşır".

Erməni şərhçi Qarnik Qevorqyan da bildirir ki, inqilabdan bir il yarım keçib, lakin heç bir dəyişiklik yoxdur: "Şüarlara və bəyannamələrə baxmayaraq, siyasi-iqtisadi sistem, iqtisadiyyatın bazisi dəyişmədi. İki onillik boyunca Ermənistan iqtisadiyyatının bazisi monopoliya-oliqarxiya idi, bu həm də siyasi hakimiyyətin dayağı rolunu oynayırdı. Siyasi sistem və oliqarxiya bir-bir ilə o qədər birləşmişdi ki, birbirinə qarşılıqlı təsir edir, oliqraxiya siyasətin maliyyələşməsini təmin edir, siyasi hakimiyyət də oliqarxiyanın maraqlarına xidmət edirdi. Nikol Paşinyan bu sistemi ləğv etməyi vəd etmişdi. Ötən müddət isə göstərdi ki, o, oliqarxiya və siyasətin birləşməsi vədini çox tez unutdu. Bu gün oliqarxiya sistemi yenə də ölkənin iqtisadi sistemində təkbaşına hakimdir. Hakimiyyət və biznesin birləşməsi təkcə parlamentdə deputat-sahibkarın olması ilə yekunlaşmır, həm də hakimiyyətdə təmsil olunmayan, lakin iqtisadiyyata sahiblik edən oliqarxiya da siyasi sistemi yönləndirir. Yeni hakimiyyət bu sistemi dəyişmək üçün heç nə etmədi, əvəzində oliqarxiya sistemindəki fiqurlar dəyişdi". Erməni şərhçi Samvel Ohanesyan isə Paşinyan hakimiyyətinin müxtəlif yalanlar adı ilə büdcəni taladığını yazır: "Lakin heç kim bunun qarşısında səsini çıxara bilmir. Çünki bu gün Ermənistanda həqiqəti deyənlər "əks-inqilabçı" damğası ilə linç edilir. Bu metod Paşinyana və onun ətrafına toplanmış məmur-oliqarxiyaya sərf edir". Paşinyanın əleyhdarları isə məhz bu vəziyyətdən istifadə edib payızda onu devirməyi düşünür.

***Tahir TAĞIYEV***

# Azərbaycan əhalisinin 98 faizinin ilin sonunadək konkret gözləntisi...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov deyib ki, inflyasiya hədəf diapazonu çərçivəsində həm hökumətin, həm də Mərkəzi Bankın hədəfindən də aşağı səviyyədədir:**



## *Elşən Əliyev: "Əhalinin nikbin olmasının başqa bir səbəbi isə dövlətə olan güvən, onun qüdrətinə bəslənən inamdır"*

"Baxmayaraq ki, olduqca presedentsiz sosial tədbirlər həyata keçirilir, sosial siyasət gücləndirilir, daxili tələb genişləndirilir, lakin, bütövlükdə, idarəetmənin yaxşılaşdırılması, görülən tədbirlər və manatın məzənnəsinin sabitliyi inflyasiyanın aşağı səviyyədə formalaşmasını şərtləndirir".

Onun sözlərinə görə, inflyasiyanın idarə olunmasında inflyasiya gözləntiləri olduqca mühüm rol oynayır: "Biz özümüz Dövlət Statistika Komitəsi ilə birlikdə 4 mindən çox ailə təsərrüfatında sorğular aparmışıq. Bütövlükdə, gələcəkdə ilin sonuna qədər inflyasiyanın sürətlənməsini gözləyən əhalinin sayı 2 faizdir. Yəni əhalinin 98 faizi ilin qalan dövründə inflyasiyanın sürətlənməsinə inanmır. O cümlədən, biznesdə, bütövlükdə, makroiqtisadi sabitliyə, inflyasiyanın dinamikasına olan inam da, - orada da sorğular aparmışıq, - kifayət qədər yuxarıdır".

Göründüyü kimi, aparılan rəy sorğusunda rəyi soruşulanların 98 faizi ilin qalan dövründə inflyasiyanın sürətlənəcəyinə inanmırlar. Bu nəyin nəticəsində belə olub və ortaya çıxan göstərici nəyin əlaməti sayıla bilər?

İqtisadçı Elşən Əliyevin sözlərinə görə, baxmayaraq ki, martın 1-dən Azərbaycanda əməkhaqları artırılıb, istehlak bazarında hər hansı bir qiymət artımı müşahidə etməmişik: "Hazırda inflyasiya göstəricisi 2,3-2,4 faiz səviyyəsindədir. Rəsmilərin verdiyi proqnozlardan da göründü ki, ilin axırı üçün proqnozlaşdırılan inflyasiyanın səviyyəsi xeyli aşağıdır. Bu tip inflyasiya heç vaxt deflyasiyaya gətirib çıxara bilməz. İlin sonu ilə bağlı bədbin proqnozlar müşahidə edilən süni qiymət artımı ilə əlaqədar səslənir və onların heç bir iqtisadi əsaslandırması yoxdur. Bununla güman edirlər ki, həyata keçirilən sosial islahatlar nəticəsində sentyabr ayından başlayaraq, dövriyyəyə məbləği milyardlarla ölçülən əlavə pul kütləsi daxil olacaq. Bu da inflyasiyanın olacağına şərtləndirə bilər.

### *"Burada həm iqtisadi, həm də psixoloji faktorlar üst-üstə düşür"*

İqtisadi nəzəriyyədə göstərilir ki, 2,5-3 faiz səviyyəsində olan inflyasiya məqbuldur, hətta o, iqtisadiyyatın artımını stimullaşdırır, yəni istehsalın daha da sürətlə artmasına təkan verir. Bundan artıq olan inflyasiya iqtisadiyyata ziyandır. Deflyasiya da olanda ixrac imkanları zəifləyir və əhalinin vəziyyəti pisləşir. Elə ölkələr var ki, onlarda uzun illərdir inflyasiya yoxdur, deflyasiya var. Bunun da nəticəsində milli valyutalar möhkəmlənir, bu da onların ixrac imkanlarına mənfi təsir göstərir. Amma bizdə inflyasiya normal həddədir.

Bu, əhalinin rifah halına mənfi təsir göstərmir, eyni zamanda, istehsalı stimullaşdırır. Yəni 2 faizi nə ölkə vətəndaşları hiss edir, nə də iqtisadiyyat. Əhalinin nikbin olmasının başqa bir səbəbi isə dövlətə olan güvən, onun qüdrətinə bəslənən inamdır. Burada həm iqtisadi, həm də psixoloji faktorlar üst-üstə düşür".

***Məhəmmədəli QƏRİBLİ***

# Özəl banklar Azərbaycanın aqrar sektorunun böyük inkişafında heç bir rol oynaya bilmir...

**Bu il kənd təsərrüfatında inkişaf göstəriciləri əvvəlki illərə nisbətən xeyli dərəcədə yüksəlib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 13 faiz artıb. Artım daha çox bitkiçilikdəki yüksək inkişaf hesabına təmin edilib.**




## *Fuad İbrahimov: "Kommersiya bankları aqrar sektorun inkişafında, demək olar, iştirak etmirlər"*

Bu ilin birinci yarısında bitkiçilik məhsulları üzrə istehsalda artım 25,6 faiz olub. Heyvandarlıqda isə 2,9 faiz artım əldə edilib.

2019-cu ildə aqrar sahədə yüksək artımın əldə edilməsi faktına Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə toxunub. Ölkə başçısı qeyd edib ki, bu il kənd təsərrüfatında rekord göstərici əldə edilib. Yüksək artım qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşmanın nəticəsində əldə edilib: "Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın".

O da məlumdur ki, ölkədə kənd təsərrüfatının inkişafında əsasən dövlət vacib rol oynayır. Dövlət vəsaiti hesabına fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Eyni zamanda, bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı subsidiyalar verilir. Ancaq bütün bunlara baxmayaraq, ölkədəki özəl bankların aqrar sektorun inkişafında hansısa iştirak səviyyəsi müşahidə edilmir.

### *"Bu sahədə risq çox olduğuna görə müxtəlif vasitələrlə kredit ayırmaqdan yayınırlar"*

Maraqlıdır, bəs ekspertlər bununla bağlı nə fikirdədirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, kommersiya bankları aqrar sektorun inkişafında faktiki olaraq iştirak etmirlər: "Bizdən fərqli olaraq, Qərbdə özəl banklar aqrar sektorun inkişafında iştirak edirlər. Azərbaycanda isə bu yoxdur. Azərbaycanla yanaşı, MDB dövlətlərində də bu problem var. Bunun başlıca səbəbi onunla bağlıdır ki, özəl bankların tarixçəsi bu ölkələrdə çox kiçikdir. Yəni 30 ilə yaxın müstəqillik dövründə formalaşan özəl bankların hazırda institusional səviyyədə kənd təsərrüfatını maliyyələşdirməsi istiqamətində təfəkkürü formalaşmayıb. Başlıca problem budur. Azərbaycanda özəl banklar çox sadə prinsiplə kapitallarını yatırmaqla qısa zamanda geri dönməsini istəyirlər. Onlar kapitallarını bu məqsədlə yatırırlar. Bu gün yaranan bu problemi dövlət öz imkanları hesabına həll edir. Aqrar sektora sərfəli şərtlərlə kreditlər verir, subsidiyalar təklif edir. Bizdə bankların məqsədi odur ki, qoyduqları pulu tez götürsünlər. Banklar hesab edirlər ki, aqrar sektorda digər sahələrlə müqayisədə risq çoxdur. Ona görə də müxtəlif vasitələrlə bu sahəyə kredit ayırmaqdan yayınırlar. O üzdən, kommersiya bankları Azərbaycanda aqrar sektorun inkişafında, demək olar, iştirak etmirlər".

***Vidadi ORDAHALLI***

# Elman Rüstəmovdan dövlət müşavirəsində dəqiq, lakin natamam mülahizə - biznes niyə artmır...

**Son zamanlar bank sektorunda müəyyən sabitləşmə müşahidə olunur. Lakin buna baxmayaraq, bank sektorunda mövcud olan bir sıra problemlər hələ də həllini tapmayıb. Bu problemlərdən biri də biznes kreditlərində artımın müşahidə olunmamasıdır. Hətta Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədə də mövcud vəziyyətdə bank sektorunda əhəmiyyətli likvidlik olsa da, biznes kreditlərinin artmadığını vurğulayıb.**

*"Biznesin əksər subyekti fundamental səbəblərdən dolayı məlum müddət ərzində sınaqdan çıxa bilmədi, nəticədə..."*

## **Rəşad Həsənov:** *"Biznes kreditləşməsi elə bir sahədir ki, aylardan, mövsümlərdən asılı olaraq dəyişir"*



Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə çıxışı zamanı bildirib ki, kredit aktivliyi davam edir: "Cari ilin altı ayında kreditlər 3,6 faiz artıb. Lakin bu zaman başlıca olaraq bu artım 9 faizdən çox istehlak kreditləri tərəfindən baş verib. Amma biznes kreditləri, real sektorda kreditlər bir qədər - 0,3 faiz azalıb".

E.Rüstəmovun sözlərinə görə, bu gün bank sektorunda əhəmiyyətli likvidlik olsa da, biznes kreditlər artmır: "Bu gün bank sektorunda əhəmiyyətli likvidlik var. Amma biz yenə də görürük ki, biznes kreditlər artmır. Görünür, kompleks requlyativ, stimullaşdırıcı tədbirlər görmək lazım gələcək ki, bu kreditlər bütövlükdə real sektora getsin və ölkədə daxili investisiya prosesini dəstəkləsin".

Maraqlıdır, biznes kreditlərini artırmaq, sahibkarları bu istiqamətdə stimullaşdırmaq üçün hansı işlər görülməlidir? Ümumiyyətlə, biznes kreditlərində artımın baş verməməsinə hansı amillər əngəl törədir və çıxış yolu nədir?

İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, indiki halda, zəmanət mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var: "Biznes kreditlərinin azalmasının səbəbini indiki dövrdə izah etmək çətindir. Bu kreditləşmə prosesi elədir ki, aylardan, mövsümlərdən asılı olaraq dəyişir. Hər hansı iri ödəyicinin kreditini bağlaması da nəticələrə təsir göstərir. Amma ümumi trend ondan ibarətdir ki, həqiqətən də Azərbaycanda bu gün bank sektorunun biznesi maliyyələşdirməsi sürəti çox zəifdir. Bu istiqamətdə əsas çətinliklərdən biri də risqlərin olmasıdır. Məlumdur ki, 2015-ci ildən sonrakı dövrdə müştərilərin böyük əksəriyyəti problemli müştərilərə çevrildi. Biznesin əksər subyekti fundamental səbəblərdən dolayı məlum müddət ərzində sınaqdan çıxa bilmədi. Nəticədə müştərilərin böyük əksəriyyəti problemli müştəri kateqoriyasına daxil olub. Həmin müştərilərlə bağlı müxtəlif ölkələrin təcrübəsinə baxdıqda görürük ki, bəzi hallarda səbəblər subyektiv yox, obyektivdirsə, bu zaman əfvlər olur, problemli müştərilərə ikinci şans verilir. Hələlik ölkəmizdə bu məsələ ilə bağlı bir addım atılmayıb. Müştərilərin böyük əksəriyyəti siyahıda problemli olaraq göstərilir və onlar bankların təklif etdiyi digər xidmətlərdən yararlana bilmirlər. Digər bir məsələ isə risqlərin qalmasıdır. Çünki mənfəət norması iqtisadiyyatda çox aşağı düşüb. Mənfəət normasının azalması nəticəsində hazırda biznes üçün orta göstərici 35-40 faizədək düşüb. Hansı ki, 2014-2015-ci illərdə ayrı-ayrı sektorlar üzrə mənfəət norması 80 faizə çatırdı. Yəni bugünkü göstərici ilə 20-30 faizarası kreditin təklif olunması cəlbedici deyil. Bir tərəfdən banklar müxtəlif səbəblərdən genişləndirilmiş və nisbətən yumşaldılmış kredit sistemi həyata keçirə bilmir, digər tərəfdən də müştərilərin özü də buna o qədər maraq göstərmirlər. Çünki kreditlərin mövcud faizləri və mənfəət normaları arasında fərq kifayət qədər azalıb. Bu da hazırkı nəticəyə təsir edən faktorlardandır. İndiki halda, zəmanət mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var. Əsas təsiredici faktor Mərkəzi Bankın bankların kapitalında iştirakçılıq payının artırılması ilə mümkün ola bilər. Yəni Mərkəzi Bank daha çox payla təmsil olunmalıdır. Mərkəzi Bankın banklarda pulu çox olarsa, banklar da daha aşağı faizlərlə biznes kreditləri təklif edərlər. Nəticədə kreditlərə tələbat artar".

***Günel CƏLİLOVA***

# İlin yanvar-iyun ayları ərzində ARDNF-in büdcə gəlirləri 10 698,3 milyon manat olub

**2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri 10 698,3 milyon manat, büdcə xərcləri isə 4 499,4 milyon manat təşkil edib.**



ARDNF-dən "Trend"ə bildirilib ki, 2019-cu ilin yanvar-iyun ayları ərzində ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8 557,1 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 780,7 milyon manat, bonus ödənişləri 766,4 milyon manat, tranzit gəlirləri 8,9 milyon manat, akrhesabı ödənişlər 1,1 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində ARDNF-in vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 2 141,2 milyon manata bərabər olub.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-in büdcədənkənar gəlirləri 513,1 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində ARDNF-in 2019-cu il büdcəsinin icrası çərçivəsində 4 413,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 74,9 milyon manat vəsait ayrılıb. 2019-cu ilin yanvar-iyun ayları ərzində ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri 11,5 milyon manat olub.

2019-cu il iyunun 30-a ARDNF-in aktivləri 2019-cu ilin əvvəlinə (38 515,2 milyon ABŞ dolları) nisbətən 10,25% artaraq 42 463,7 milyon ABŞ dolları təşkil edib.

Aktivlərin artımı ARDNF-in büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub.

Müvafiq dövr ərzində ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə olunmaqla investisiya portfelinin hər bir tərkib aktiv növü üzrə müsbət gəlirlilik qeydə alınıb. Belə ki, səhm alt portfeli üzrə ötən ilki mənfi gəlirliliyə baxmayaraq (-6,6%) 2019-cu ilin ilk 6 ayı ərzində müvafiq göstərici 13,1% təşkil edib.

# Plastik cərrahiyyə masasında Sona həkimin ölümünə səbəb olmuş cərrah Sirus Qoçqani barədə şok iddia - diş texniki?

## *Rasif Bağırov: "Tibbin texniki sahəsində işləyənlər cərrah kimi çalışan zaman xəstəyə həkim kimi deyil, texnik kimi yanaşırlar"*

**Bədəndə yığılan piylərdən qurtulmaq üçün liposaksiya əməliyyatı (müxtəlif nahiyələrdə olan piyin sovrulması) uzun illərdir tətbiq edilir. Azərbaycanda da bu estetik əməliyyata çox geniş yer verilir. Xüsusən gözəl görünmək istəyən xanımlar diet proqramları, idmanla piylərdən yaxa qurtara bilməyəndə bu əməliyyat üçün müraciət edirlər.**

Son illər piylər, artıq çəki ilə vidalaşmaq üçün fərqli metodlar gündəmə gəlsə də, liposaksiya hələ də əvəzolunmazlığını saxlayır. Son bir ayda isə bu əməliyyatla bağlı qeydə alınan iki ölüm faktı liposaksiyanın çox risqli metod olması barədə təəssürat yaradıb. Qeyd olunan əməliyyat zamanı ölən və ya ağır dərəcəli xəsarət alanların sayı artır.

Bu il mayın 28-də isə Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun əməkdaşı, ginekoloq Sona Gürgün Vəliyeva liposaksiya əməliyyatından sonra dünyasını dəyişib. Sona Gürgün Vəliyevanın yaxınları həkimin ölümündə plastik-estetik cərrah Sirus Qoçqanini və onun assistenti olan həyat yoldaşını günahkar sayırlar. Onlar iddia edirlər ki, Sirus Qoçqani əməliyyatdan əvvəl həkim həmkarını əməliyyatın tam təhlükəsiz olduğuna inandırıb.

İctimai vəkil Samir Zeynalov deyib ki, əməliyyatdan bir müddət öncə Sona Gürgün Vəliyeva Sirus Qoçqani ilə görüşüb, əməliyyatın təhlükəli olub-olmaması haqda söhbət aparıb. S.Zeynalov bildirib ki, Sona Gürgün Vəliyeva ölümü ilə müğənni Zemfira İbrahimovanın həyatını xilas edib: "Sona xanım əməliyyat masasında dünyasını dəyişəndən 1 gün sonra Qoçqani müğənni Zemfira İbrahimovanı eyni əməliyyata götürəcəkdi. Sona xanımın ölümündən sonra Z.İbrahimova bu istəyindən vaz keçib. Bizdə olan məlumata görə, Sirus Qoçqani plastik-estetik cərrah deyil, ixtisası diş texnikidir".

Qeyd edək ki, bu gün tibb müəssisələrində çalışan personalın öz işinin mütəxəssisi olmadığı dəfələrlə ictimaiyyətə açıqlanıb. Adi tibb bacısı, feldşer, diş texnikliyini oxuyan şəxs daha çox pul qazanmaq üçün Türkiyə və ya digər ölkələrdə 6 aylıq kurs keçməklə həkim olur və xəstələri müalicə etməklə məşğul olur. O cür həkimlərin müalicə və ya cərrahiyyə əməliyyatlarının nəticəsi təbii ki, bədbəxt hadisə ilə yekunlaşır. Elə Sona Gürgün Vəliyeva da öz işinin peşəkarına deyil, əslində, diş texniki olan, lakin cərrah kimi fəaliyyət göstərən Sirus Qoçqaninin qurbanı oldu.

Maraqlıdır, ixtisasca diş texniki olan şəxs necə plastik cərrah kimi fəaliyyət göstərə bilər?

Həkim-ekspert Rasif Bağırov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün Türkiyə və digər ölkələrdən ölkəmizə çalışmaq üçün gələn həkimlər qeyri-ixtisas sahibləridirlər. Türkiyə, İran və digər qonşu ölkələrdən gələn həkimlər əsasən tibbin texniki sahəsində çalışıblar: "Bir-iki kursa gedib, oranın diplomunu alıb, ölkəmizə peşəkar həkim kimi gəlib əhaliyə xidmət göstərməyə başlayırlar. Media da həmin əcnəbi həkimlərin fəaliyyətini və ixtisasını tam araşdırmadan onları reklam etməyə başlayır. Beləliklə, canının hayında olan insanlar həmin reklama inanıb qeyri-peşəkar həkimlərin qurbanına çevrilirlər. Nəticədə isə xoşagəlməz hallar qeydə alınır. O cür həkimlərin qurbanı olan şəxslər, ən yaxşı halda, səhhətləri düzəlmək əvəzinə ağırlaşır, pis halda isə vəfat edirlər. Belə bir hadisə isə bir neçə ay öncə liposaksiya əməliyyatı zamanı qeydə alındı. Ginekoloq-həkim əməliyyat üçün tam müayinə olunmadan o cərrahiyyə masasına uzadıldı və nəticədə isə xanım vəfat etdi.

Hətta bir müddət öncə bir tanışım xaricdən gələn həkimə gözünü əməliyyat etdirdi. Əməliyyat uğursuz alındı və xəstə kor oldu. Bu hallarda heç bir həkim xəstənin səhhətində yaranan problemi həll etməyi üzərinə götürmür və nəticədə xəstənin vəziyyəti daha da ağırlaşır.

Onu da deyim ki, bəzən xaricdən gəlmiş yox, elə öz yerli həkimlərimiz arasında da ixtisasına uyğun olmayan sahədə çalışanlar olur. Azərbaycanda ümumi cərrah və ya digər sahədə işləyən həkimlər var ki, özlərini plastik cərrah kimi təqdim edərək, plastik əməliyyatlar keçirirlər. Nəticədə xəstələrin görünüşü daha pis vəziyyətə düşür. Dəfələrlə plastik cərrah olmayan həkimlər tərəfindən uğursuz əməliyyat olunan xəstələrlə rastlaşmışam. Amma bu hal xaricdən gələn həkimlər deyil, ixtisası başqa olan, özünü plastik cərrah kimi təqdim edən yerli həkimlər tərəfindən baş tutub".





*"Azərbaycanda ümumi cərrah və ya digər sahədə işləyən həkimlər var ki, özlərini plastik cərrah kimi təqdim edərək plastik əməliyyatlar keçirirlər"*

**Həmsöhbətimiz onu da vurğuladı ki, tibbin texniki sahəsində işləyənlər cərrah kimi çalışan zaman xəstəyə həkim kimi deyil, texnik kimi yanaşırlar. Nəticədə isə ölüm halı qeydə alınır. Niyə belə oldu sualını verəndə isə həmin texniklər müəyyən bəhanələr gətirməyə başlayırlar: "Bu gün Azərbaycan səhiyyəsində ixtisasca texnik olub, lakin həkim kimi çalışan şəxslər yetərincədir. O cür şəxslər araşdırılmalı və onlarla bağlı sərt tədbir görülməlidir".**

*Günel CƏLİLOVA*

# Kənd təsərrüfatında uçot məsələsi Xaçmazda geniş müzakirəyə çıxarıldı

**Avqust ayının 2-də Xaçmazda kənd təsərrüfatı sahəsində uçotun dürüstləşdirilməsi və şəffaflaşdırılması işlərinin təşkili məsələlərinə həsr olunmuş tədbir keçirilib. Media və Kommunikasiya Mərkəzindən "Bakı-Xəbər"ə verilən məlumata görə, tədbirdə Vergilər Nazirliyinin, Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının icra hakimiyyətlərinin rəhbər vəzifəli şəxsləri, həmin rayonların dövlət aqrar inkişaf mərkəzlərinin əməkdaşları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Əmlak Məsələləri Dövlət Komitəsinin yerli qurumlarının, qəsəbə, kənd icra nümayəndəliklərinin və bələdiyyələrin rəhbərləri, 3 saylı Ərazi Vergi İdarəsinin əməkdaşları iştirak ediblər.**

Tədbir iştirakçılarını salamlayan Xaçmaz Rayon İcra Hakmiyyətinin başçısı Şəmsəddin Xanbabayev rəhbərlik etdiyi rayonun timsalında kənd təsərrüfatında aparılan uğurlu islahatların müsbət nəticələri barədə məlumat verib, bütün sahələrdə olduğu kimi, burada da uçotun düzgün aparılmasının çox vacib olduğunu qeyd edib.

Vergilər nazirinin müavini Sahib Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kənd təsərrüfatının inkişafına xüsusi önəm verdiyini görüş iştirakçılarının diqqətinə çatdıraraq, bir neçə gün əvvəl keçirdiyi iclasda cari ilin ilk 6 ayı ərzində bu sahədə rekord göstəricilər əldə edildiyindən, kənd təsərrüfatında 13 faiz artıma nail olunduğundan, sahəyə qoyulan investisiyaların, aparılan islahatların, verilən subsidiyaların, kənd təsərrüfatına elmi yanaşmanın öz nəticələrini verdiyindən, gələcək illərdə də kənd təsərrüfatının dayanıqlı inkişafının həm məşğulluğun, həm də kənd təsərrüfatı məhsullarının ixracının artırılmasına xidmət göstərəcəyindən məmnunluqla danışdığını görüş iştirakçılarının diqqətinə çatdırıb.




Sonra o, bu sahədə uçotun dürüstləşdirilməsini və şəffaflaşdırılmasını zəruri edən səbəblər, mövcud problemlərin aradan qaldırılması üçün vergi orqanları və aidiyyəti dövlət qurumlarının birgə əməkdaşlığı və digər vacib məsələlər barədə məlumat verərək vurğulayıb ki, əsas məqsəd bu sahədə fəaliyyət göstərən istehsalçıların vergiyə cəlb edilməsi yox, digər aidiyyəti dövlət qurumları və bələdiyyələrlə birlikdə real vəziyyəti düzgün əks etdirən uçotun qurulmasının təmin edilməsidir. Çünki real vəziyyəti bilmədən və düzgün dəyərləndirmədən real hədəflər müəyyən olunması və həmin hədəflərə çatmaqda ciddi problemlər ortaya çıxır.

Qeyd olunub ki, kənd təsərrüfatı məhsulları istehsalçıları uçot aparmamaqla və hesabat təqdim etməməklə 3-cü şəxslərin vergidən yayınmasına şərait yaratmış olurlar ki, bu da yolverilməzdir. Bildirilib ki, kənd təsərrüfatı sahəsində uçotun və hesabatlılığın səviyyəsi qənaətbəxş hesab oluna bilməz və kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən müxtəlif dövlət orqanlarına və bələdiyyələrə təqdim olunan hesabatlardakı rəqəmlər arasında ciddi uyğunsuzluqların olması bu sahənin daha sürətlə inkişaf etdirilməsinə əngəl törədən amillərdən biridir.

Vergilər Nazirliyinin Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi departamentinin baş direktoru Elçin Bəylərov kənd təsərrüfatı sahəsində uçot və hesabatlılığın təşkili və tətbiqi sahəsindəki mövcud vəziyyət və görüləcək işlər barədə layihəni görüş iştirakçılarına təqdim edib və ərazi vergi orqanlarının aidiyyəti dövlət qurumları ilə birlikdə görəcəyi işlərlə bağlı hazırlanmış proseslər xəritəsi barədə görüş iştirakçılarını məlumatlandırıb.

Tədbirdə Vergilər Nazirliyinin 3 saylı Ərazi Vergilər İdarəsinin direktoru Sarxan Məmmədov, Azərbaycan Fermerlər Assosiasiyasının sədri Pərviz İlyasov da çıxış ediblər. Sonda görüş iştirakçılarının sualları cavablandırılıb.



# Gədəbəyli Kamil İmanquliyevin qatili tapıldı...

**Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatına görə, polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş qətlin üstü "isti izlər"lə açılıb.**

Belə ki, iyulun 22-də Gədəbəy rayon sakini, 1959-cu il təvəllüdlü Kamil İmamquliyevin üzərində zorakılıq əlamətləri olan meyitinin ailə üzvləri tərəfindən aşkar edilməsi faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin Ağstafa rayon sakini, 1980-cı il təvəllüdlü Anar Nuriyev tərəfindən törədilməsinə kifayət qədər əsaslı şübhələr olduğundan, barəsində axtarış elan edilib.

**Aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində A.Nuriyev avqustun 1-i Ağstafa rayonu ərazisində tutularaq istintaqa cəlb olunub.**

A.Nuriyev şübhəli şəxs qismində saxlanaraq dindirilib və ilkin ifadəsində törətdiyi cinayət əməlini tam etiraf edib.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***Baki-xeber.com***

# Bəxtiyarın hüzur evi

**Əslində o evə bir neçə ay öncə getmişdim. Lakin o evi cümlələrə köçürməyə tələsmirdim. Səbəbini bilmirəm, amma o evdə keçirdiyim hisslər məni hər gün təqib etdi... Və bu gün...**



O evdə bəlkə də heç bir saatdan çox qalmadım, lakin orada yaşadığım hissləri sizə çatdırmaq üçün o hüzur evi məndən aylarımı aldı və bir ömür boyu yaddaşımda qaldı...

Çox şair, yazıçı evində oldum, lakin Bəxtiyarın hüzur evi qədər mənə təsir edən olmadı... O ev məni qəhərə boğub, uzaqlara apardı... çünki o ev Bəxtiyarın özü idi. Bəxtiyar kimi sadə, sadə göründüyü qədər də dərin, mənalı... O evdə xatirələrə qərq olmuş divarlar, yuxusuz gecələrdə yuxu izləri qalmış saysız kitablar... O evdə, ən əsası, Bəxtiyarın ilham masası və dərd ortaqları vardı... Hər tüstü çəkişində ürəyinin dərinliyindən bir söz çəkən-siqaret...O çəkilmiş hər ürək sözlərini vərəqə çəkən-qələm...Dərdi çəkərək itirdiyi nurun köməkçisi-eynək...Hər səfərində tərini silərkən alnına bir dərd cizgisi daha yazan-cib dəsmalı...Və ən əsası, Bəxtiyarı nizama çəkən kitab-Qurani-Kərim...Başqa heç nə...

Hə, bir də o evdə Bəxtiyarın sevərək daşıdığı kostyumu vardı...İlk görcək Bəxtiyara sual vermək istədim... Şair, neçə səfər geyindin onu? Neçə səfər onunla çıxışlara qatıldın? Neçə misra onunla şeir dedin? Neçə səfər onunla doğum günü qarşıladın? Neçə tel onunla saç ağartdın?

Bəxtiyarın kostyumuna baxdıqca ardı-arası kəsilməyən suallar boğazımda ilişib düyünlənirdi... Suallarımı verə bilməyəcəyimi anlayıb, Bəxtiyarın evini tərk edib, hüzurun bağçasına çıxdım. Lakin Bəxtiyar məni tərk etmədi...Bəxtiyar məni burada da gözləyirdi... Bəxtiyarın bağçası da elə onun özü idi...Boğazımdaki düyünləri dərmək üçün bağçadaki oturacağa əyləşdim. O bağçanı diqqətlə süzürdüm.Onu dərk etdim ki, burada quşlar bir başqa səssiz pıçıltı ilə cəh-cəh vurur, külək bir başqa səssiz əsir, günəş bir başqa Bəxtiyarın sevdiyi səma rəngində aydınlanırdı. Çox keçməmiş hüzur evindən gedəsi oldum. Çıxarkən ardıma baxdım...Bəxtiyar artıq arxada qalmışdı, mənimlə deyildi. O öz evində hüzuruna alacaq növbəti qonağın yolunu gözləyirdi...Elə təzəcə çıxmışdım ki, yağış atmağa başladı. Anladım ki, Bəxtiyardı... Sağ-salamat gedim deyə ardımca su atır...

***AYSEL OĞUZ***

# Bakıda iki çimərlik də mikrobioloji baxımdan təhlükəli elan edildi




**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları tərəfindən 25 iyul-1avqust tarixlərində çimərlik ərazilərində dəniz suyunun növbəti monitorinqi keçirilib, mikrobioloji təhlillər aparılıb.**

"Trend"in məlumatına görə, budəfəki analizlərin nəticələrinə görə Buzovna, Şüvəlan çimərlikləri də mikrobioloji baxımdan çirkli hesab olunub. İdarənin əməkdaşı Nərmin Babaşovanın sözlərinə görə, bundan bşaqa, Bakı və Abşeron yarımadasında Bilgəh, Nardaran, Pirşağı, Zaqulba və Mərdəkan çimərlikləri istisna olmaqla Sumqayıt, Novxanı, Buzovna, Şüvəlan, Türkan, Hövsan, Şıx, Sahil, Xaçmazın Yalama, Seyidlər, İstisu (Müqtədir), Nabran, Lənkəran və Astara ərazilərindəki çimərliklər mikrobioloji baxımdan çirklidir.

**Buzovna və Şüvəlan çimərliklərinin isə bu dəfə çirkli çıxmasına səbəb bu ərazilərdə fəaliyyət göstərən istirahət mərkəzlərinin tam işə başlaması, orada formalaşan tullantı sularının düzgün idarə edilməməsi və dənizə axıdılmasıdır.**

# "Azercell"in Rəqəmsal Dünyasını bölgənizdə gözləyin!

## *"Azercell"in Naxçıvan MR-na səfəri uğurla baş tutdu*

**Dünya trendlərinə uyğun xidmətləri, ən effektiv həlləri, həmçinin, sərfəli kampaniyaları ilə ölkə əhalisinin əksəriyyətinin seçimi olan və fəaliyyətinin yeni rəqəmsal dövrünə qədəm qoyan "Azercell Telekom" MMC-nin "Rəqəmsal dünya bölgələrdə" adlı yeni layihəsi Naxçıvan şəhərindən başlayaraq, Şərur və Ordubadda da keçirilmiş, muxtar respublikanın sakinləri tərəfindən böyük rəğbətlə qarşılanıb.**




Belə ki, bu səfər zamanı Azərbaycanın rabitə bazarının lider mobil operatoru "Azercell" onminlərdən çox insanı bir araya toplamağa müvəffəq olub. "Azercell" bölgə sakinləri ilə görüşərək, onları yeni rəqəmsal məhsullar olan "Kabinetim" tətbiqi, "BuludCinema", "TelekomTv" xidmətləri, mobil internet cihazları və www.azercellim.com onlayn bazası, rabitə xərclərinə qənaət etmək imkanı yaradan "Sərbəst", "GəncOL" və "Sadə" tarif paketləri ilə tanış edib. Bundan əlavə, səfərlər çərçivəsində müxtəlif proqramlar, intellektual və əyləncəli oyunlar, müsabiqələr keçirilib, abunəçilərə hədiyyələr paylanıb. Qeyd edək ki, "Azercell"in dəstəklədiyi "İmzanı Tanıt" sosial layihəsinin iştirakçıları da tədbirə qatılıb və öz əl işlərini nümayiş etdiriblər.

Ölkəmizə 4G xidmətini ilk təqdim edən şirkət olaraq "Azercell", abunəçilərinin gözləntilərini qarşılamaq və respublikamızın bütün sakinlərini bərabər texnoloji imkanlarla təmin etmək üçün 2018-2019-cu illər ərzində LTE şəbəkəsinin bütün ölkə üzrə gücləndirilməsi və genişləndirilməsini həyata keçirib. Bunun nəticəsində şirkət Azərbaycanın 57 şəhər və rayonunda əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% artıma nail olub. Bu müddətdə 1007 yeni LTE stansiyası qurularaq, 4G stansiyalarının ümumi sayı 1667-yə çatdırılıb, günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alınıb. Hazırda ölkə boyu 7000-dən çox stansiya daimi bağlantını təmin etməkdədir.

Avqust ayında "Azercell"in Rəqəmsal Dünyasını öz bölgənizdə gözləyin!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

№ 136 (4034) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

3-5 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Qədim Misir fironu Tutanhamonun sarkofaqı bərpa olunacaq

**Qədim Misir fironu Tutanhamonun taxtadan olan sarkofaqı bərpa edilmək üçün Böyük Misir Muzeyinin xüsusi laboratoriyasına göndərilib.**

"AZƏRTAC" bildirir ki, bu barədə Qədim abidələr üzrə Ali Şuranın baş katibi Mustafa Vəziri məlumat verib. Onun sözlərinə görə, bu minilliklərlə tarixi olan sarkofaqın bərpa kursunu keçmək üçün muzeyə aparılması barədə qərar qədim abidələr üzrə xüsusi komissiya tərəfindən qəbul olunub. Bu tarixi abidənin Böyük Misir Muzeyinə köçürülməsi üçün yüksək təhlükəsizlik tədbirləri görülüb. Bildirilib ki, 1922-ci ildə aşkar edilən sarkofaq ilk dəfə olaraq bərpa ediləcək. Muzeyin bərpa işləri üzrə direktoru İsa Zeydan qeyd edib ki, sarkofaqın bərpası üzrə işlər səkkiz ay çəkəcək. Onun sözlərin görə, mütəxəssislər sarkofaqın qızıl suyuna salınmış üst qatında çoxlu çatlar aşkar ediblər.



## Miniatür robot transformer yaradıldı

Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları müxtəlif vəzifələrin icrası üçün xarici görünüşünü dəyişərək müstəqil şəkildə yenidən qurulan robot yaradıblar. Perspektivdə onun tamamlanaraq miqyasının böyüdülməsi planlaşdırılır. "ICTnews" bildirir ki, robotun əsasını 20 amin turşusundan ibarət həyat formalarının yaradılması prinsipi təşkil edir. Bu yanaşma əvvəllər robot texnikasında tətbiq edilməyib. Robotun yaradılması zamanı professor Nil Qerşenfeld və tələbə Uill Lenqford məhdud metal dəstindən istifadə ediblər. Qurğu bu və ya digər şəraitdə lazım olan mexanizmə çevrilən beş kiçik əsas seqmentlə təchiz edilib. Yenidən qurulma insanın iştirakı olmadan həyata keçirilir. Hazırda institut tədqiqatçıları tərəfindən yaradılan robot primitiv əzələ hərəkətlərini təkrarlayır, dişli çarxları döndərir və öz çəkisini yeddi dəfə üstələyən ağırlıqda yük qaldırır. Layihənin gələcək inkişaf nüməsi kimi Nil.Qerşenfeld elektron qurğu və mexanizmləri müstəqil çap edən üçölçülü printerləri göstərib. Alimin fikrincə, məhz belə həllər robot texnikasını sadə istifadəçiyə daha da yaxınlaşdırmağa imkan verir.



# Ən qəribə himnlər: 632 misra və...

**Hər bir ölkənin özünəxas, başlıca mahnısı var ki, bu da himn adlanır. Himn ölkənin əsas özəlliklərini, uğurlarını, mənəvi dəyərlərini xarakterizə edir.**

Bəzənsə himnin sözləri düşündüyümüz dərin mənanı daşımır. Məsələn, Polşa və Fransanın himnləri aktuallığını çoxdan itirmiş hadisələrdən bəhs edir. Buna baxmayaraq, hər iki ölkənin vətəndaşları üçün himnləri müqəddəs sayılır. "Milli.Az" digərləri üçün qəribə görünə bilən ölkə himnlərini təqdim edir: Yaponiyanın himni. Yaponiyanın himni dünyanın ən qısamüddətli himnləri siyahısındadır. Cəmi 5 sətirdən ibarət olan bu mahnının sözləri lap qədimdə yazılmış şeirdir. Bu şeirə 1880-ci ildə musiqi bəstələnir və yapon hakimiyyəti qərar verir ki, himn mütləqdir. Mahnı ölkənin himninə çevrilir. Buna baxmayaraq, Yaponiyanın himni yalnız 1999-cu ildə qanunla təsdiq olunur. Dünyanın ən qısa himnlərindən olan bu mahnı hələ də yapon xalqı tərəfindən tam qəbul olunmur. Belə ki, dövlət himni səslənəndə, bəziləri onu ifa etməkdən, hətta ayağa qalmaqdan çəkinirlər. Əminliklə deyə bilərik ki, dünyanın ən qalmaqallı himni Yaponiyaya məxsusdur. Kanadanın himni. Bu ölkənin himni ən ziddiyyətli himn sayılır. Dünyanın bir sıra ölkəsində himn mətnləri iki dildədir. Məsələn, Finlandiyada bir mətn fin və isveç dillərində ifa oluna bilər. Kanadanın ingilis və fransız mətnli himnində musiqi eyni olsa da, tam fərqli hisslər təsvir olunur. İngilis dilli himdə ölkə azad, gözəl şimal məmləkəti kimi verilir. Fransız dilli variantda isə tarixi keçmişindən bəhs olunur. Yunanıstanın himni. Yunanlarsa 632 misralıq poemanı özlərinə himn ediblər. Sonradan ixtisar olunaraq, 96 misra saxlanılıb ki, bu da 24 bənd edir. Vətəndaşlara lap rahat olsun deyə, bütün rəsmi tədbirlərdə yalnız ilk 8 bənd səsləndirilir. Süjet xətti tam təsvir olunmasa da, qısa və lakonikdir. Misirin himni. Rus turistləri üçün ən qəribə səslənən himn Misirin himnidir. Çünki, bu mahnı "Biladi, biladi, biladi" sözü ilə başlayır. Əslində, "biladi" ərəbcədən tərcümədə "vətən" deməkdir. Eyni sözə BƏƏ-n himnində də rast gəlinir. Misirin himni 1923-cü ildə yazılsa da, 1979-cu ildə rəsmiləşib. Bəli, bu gün bizim üçün qəribə səslənən onlarca himn var. Lakin onların hər biri öz vətəndaşı üçün əziz və şərəflidir.







**Qoç** - Günün ilk yarısı xeyli məhsuldar zamandır. Başladığınız işləri məhsuldar şəkildə yerinə yetirə bilərsiniz. Bununla belə, fəaliyyətinizdə ciddi dönüşə bel bağlamayın. Mübahisələrə qatılmayın.

**Buğa** - Ev işləri yetərincədir. Səbrli, soyuqqanlı olun. Kəskin hərəkət etməyin, sərt danışmayın. Düşünülməmiş qərarlar verməyin. Kölgəyə çəkilmək, olayların episentrindən uzaqlaşmaq alınmayacaq.

**Əkizlər** - Genişmiqyaslı layihəyə başlamaq üçün uğurlu zamandır. Eyni vaxtda bir neçə işlə məşğul olmaq mümkündür. Emosional baxımadan zəngin vaxtdır. Müxtəlif mənbələrdən yeni xəbərlər ala bilərsiniz.

**Xərçəng** - Günün ilk yarısı məhsuldar olacaq. Problemlərin həllinə yaradıcı yanaşın. Yazışmalarda hisslərə qapılmayın. Proseslərin konkret kursu görünmür. Fəaliyyətinizin sonucları sizi tam razı salmayacaq.

**Şir** - Xırdalıqlara fikir vermək asan olmasa da, detalları nəzərdən qaçırmayın. Qəfil xəbər və ya gələn informasiya narahatlıq, nigaranlıq yarada bilər. Ətrafınızda baş verənlərdən nəticə çıxarın.

**Qız** - Retroqrad insanlardan uzaq durun. Yeni işlərə başlamaq istəyirsinizsə, onlara bel bağlamayın. Əvvəlcədən hazırlanmış plan çərçivəsində hərəkət edin. Sınanmış metodlardan istifadə edin.

**Tərəzi** - Önəmli istiqaməti intuitiv olaraq seçə bilərsiniz. Yeni layihəyə başlamaq, ciddi problemin həllinə start vermək üçün münasib zaman deyil. Axşam saatlarında spontan yaradıcılıq həlləri mümkündür.

**Əqrəb** - Emosional olmayın, hisslərinizi cilovlayın. Narazılıq, təlaş və diskomfortun öhdəsindən gəlməyə çalışın. Hadisələr sürətlə inkişaf edir. Olaylarda müəyyən nizamsızlıq, hətta xaos ünsürləri müşahidə olunur.

**Oxatan** - Günün məcrası səhər saatlarında müəyyənləşəcək. Dəyər verdiyiniz insanlarla aktiv ünsiyyətdə olun. Emosiyalarınıza nəzarət edin. Münasibətləri aydınlaşdırmağa çalışmayın. Güzəştlərə meylli olun.

**Oğlaq** - Mürəkkəb, qarışıq zamandır. İşlərdə hiperaktiv olmayın. Səhər saatlarında diqqətli olun. Cari işlərə bağlı olmayan müzakirələr və danışıqları təxirə salın. Sərt tələblər, işdə rəhbərliklə həmkarlarınızın tələbləri sizi qıcıqlandıra bilər.

**Dolça** - Uzun müddətdən bəri sizi narahat edən suala cavab tapa bilərsiniz. Təşviş, əməllərinizdən bədgümanlıq, ətrafdakı insanlardan narazılıq istisna deyil. Kənar təsirlər baş verənlərin mənzərəsini dəyişə bilər.

**Balıqlar** - Yaxın ətrafınızdakı insanların emosional durumuna fikir verin. Yaşamınızda yeni mövzu peyda ola bilər. Yeni maraq da istisna deyil. Narahatlıq varsa, onun səbəblərini anlamağa çalışın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yaponiyada orta ömür həddi rekord səviyyəyə çatıb



**Yaponiyada ötən il orta ömür həddi həm qadınlar, həm də kişilər arasında rekord səviyyəyə çatıb. Heysey dövrünün başlandığı 1989-cu illə müqayisədə ömrün davam etməsi 5 il yarım artıb.**

"AZƏRTAC" bildirir ki, 2018-ci ildə ölkədə orta ömür həddi qadınlar arasında 87,32 il, kişilər arasında isə 81,25 il təşkil edib. Bildirilir ki, bu, ardıcıl olaraq yeddi ildir davam edir. Yapon qadınların orta ömür həddi dörd il ardıcıl davam edərək bütün dünyada Honkonqdan sonra ikinci, yapon kişilərin isə Honkonqdan və İsveçrədən sonra iki il ardıcıl davam edərək üçüncü olub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.